# NOVRUZ SÜFRƏLƏRİ ÜÇÜN KƏND QOXUSU

Bakıda "Kənddən Şəhərə" Novruz yarmarkası fəaliyyətə başlayıb. Yarmarkada 25-ə yaxın regiondan 50-dən çox fermer iştirak edir.

Novruz bayramı yaxınlaşdıqca bayram süfrəsi üçün alış-veriş də canlanır. Şəhər sakinlərinin yerli və təzə kənd məhsullarına olan tələbatını qarşılamaq məqsədilə Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı ilə 9–19 mart tarixlərində "Kənddən Şəhərə" Novruz yarmarkası keçirilir. Alıcılara 100-dən artıq çeşiddə kənd təsərrüfatı və qida məhsulu təqdim olunur.

SƏHİFƏ 9-da



'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

14 MART ŞƏNBƏ 2026 № 10 (4261) Qiyməti - 60 qəpik www.kaspi.az





## DÜNYANI DƏYİŞƏN İKİ HƏFTƏ

İrana qarşı İsrail və ABŞ-nin başlatdığı müharibənin iki həftəsi tamam oldu. Münaqişənin arealı getdikcə daha geniş coğrafiyaya yayılır. Tərəflərin bəyanatları da hər iki tərəfin atəşkəsə hazırlaşmadığından xəbər verir.

SƏHİFƏ 5-də



## GƏRGİN REGİONDA DÜŞÜNÜLMÜŞ SİYASƏT

Azərbaycan rəhbərliyi İran böhranı ilə bağlı yalnız diplomatik addımlar atmır. Müharibə başlayandan müxtəlif ölkələrin vətəndaşlarının təxliyəsinə şərait yaratmaqla yanaşı, İrana humanitar yardım da göndərilir.

SƏHİFƏ 4-də

## "TİCARİ DÖVRİYYƏMİZ BİRMƏNALI OLARAQ ARTACAQ"

# BAKI VƏ BRÜSSEL ƏMƏKDAŞLIĞI GENİŞLƏNDİRİR



Azərbaycan Avropa İttifaqının əsas tərəfdaşlarındandır. Xüsusilə də enerji və nəqliyyat sahələrində yüksək səviyyəli əməkdaşlıq var. Tərəflər hazırda daha sıx əməkdaşlıq üçün yeni çərçivə üzərində işləyirlər.

### TƏRƏFDAŞLIĞIN FƏAL MƏRHƏLƏSİ

İlham Əliyevin də qeyd etdiyi kimi, Aİ və Azərbaycan müxtəlif səviyyələrdə tərəfdaşlığın fəal mərhələsindədirlər: "Bu ilin yanvarında ticari dövriyyəmizin 50 faizi Aİ ilə bağlı olub. Əminəm ki, yeni layihələr və yeni investisiya imkanları ilə sərmayələr iki istiqamətdə yatırılacaq".

### DAHA SIX ƏMƏKDAŞLIQ ÜÇÜN YENİ ÇƏRÇİVƏ

Antonio Koşta isə qeyd edib ki, Azərbaycan Aİ-nin əsas tərəfdaşıdır: "Təhlükəsizlik və insan haqları da daxil olmaqla, mövcud dialoq mexanizmlərindən tam şəkildə istifadə etmək məqsədilə hazırda biz Aİ ilə Azərbaycan arasında daha sıx əməkdaşlıq üçün yeni çərçivə üzərində işləyirik".

SƏHİFƏ 3-də



## BAKININ CAZİBƏSİ KƏNDLƏRİ BOŞALDIR

Kənd əhalisinin şəhərlərə üz tutmasının arxasında sosiallaşma, mədəni tədbirlərə yaxınlıq, keyfiyyətli yaşam mühiti və nəqliyyat imkanlarının əlçatanlığı kimi amillər dayanır. Ekspertlər prosesin davam edəcəyi qənaətindədirlər.

SƏHİFƏ 8-də



## KANADA "ORTA DÖVLƏTLƏR" ALYANSI YARADIR

Kanadanın Baş naziri Mark Karni "orta dövlətlər" koalisiyasının formalaşdırılmasına çağırış edib. Təşəbbüs iqtisadi maraqların qorunmasına və super güc olmayan ölkələr arasında əməkdaşlığın gücləndirilməsinə yönəlib.

SƏHİFƏ 7-də

## YERLİ KADRLAR ÜSTÜNLÜK QAZANIR

# ƏMƏK BAZARINDA YENİ DİNAMİKA



Ötən ilin yekunlarına görə, Azərbaycanda əmək bazarında xarici işçi qüvvəsinin dinamikası müəyyən dəyişikliklərlə müşahidə olunub. Rəsmi statistikaya əsasən, 2025-ci ilin sonuna ölkədə qüvvədə olan iş icazələrinin sayı 7 990 nəfər təşkil edib. Bu göstərici 2024-cü ilin sonundakı 8 141 nəfərlə müqayisədə 151 nəfər və ya təxminən 1,9 faiz azdır. Maraqlıdır, bu azalmanın əsas səbəbi nədir?

SƏHİFƏ 11-də



## UŞAQLAR, OYUNLAR VƏ RİSKLƏR

Uşaqlar arasında kompüter oyunlarına bağlılıq halları sürətlə artır. Bəzi oyunlar azyaşlıların psixoloji durumuna mənfi təsir göstərir. Artıq cəmiyyətdə belə oyunlara qadağa qoyulması təklifləri səslənməyə başlayıb.

SƏHİFƏ 13-də



## İTALİYA FUTBOLU DƏRİN BÖHRAN İÇİNDƏ

İtaliya futbolu dərin böhran içindədir. İllər keçdikcə "kalço" həvəskarları üçün mənzərə daha da qaranlıqlaşır. Bu gün italyanların Çempionlar Liqasının 1/8 final mərhələsində cəmi bir təmsilçisi qalıb.

SƏHİFƏ 16-da



TRIPP təşəbbüsü mühüm imkanlar yaradır

SƏHİFƏ 10-da



Böyük potensial, zəif artım

SƏHİFƏ 6-da



Ucuz evin böyük dərdi

SƏHİFƏ 14-də



Həbs çıxış yoludurmu?!

SƏHİFƏ 12-də



O uzaq, yaşıl ada...

SƏHİFƏ 15-də

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# “SÜLHDƏN DAHA YAXŞI HEÇ NƏ YOXDUR”

Prezident İlham Əliyev: “İkinci Qarabağ müharibəsi və daha sonra antiterror əməliyyatı zamanı bizi ittiham edənlər ya uzaqgörən deyildilər, ya da qərəzli idilər. Çünki bizim gördüyümüz hər bir iş beynəlxalq hüquqa uyğun idi, biz gücdən istifadə edərək sülhə nail olduq və bu gün bunu nümayiş etdiririk”.




Bakı daha bir möhtəşəm Foruma ev sahibliyi edir. Prezident İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə “Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması” mövzusunda XIII Qlobal Bakı Forumu işə başlayıb. Tədbirdə bir çox tanınmış xarici ictimai-siyasi xadimlər iştirak edirlər. Forumda çıxış edən Prezident İlham Əliyev hazırda dünyanı narahat edən bir çox aktual mövzulara toxunub, regional və beynəlxalq məsələlərə dair fikirlərini açıqlayıb.

### “YEDDİ AYDIR SÜLH ŞƏRAİTİNDƏ YAŞAYIRIQ”

Prezident İlham Əliyevin sözlərinə görə, regional təhlükəsizlik Azərbaycan üçün hər zaman bir nömrəli məsələ olub: “Xoşbəxtlikdən, biz artıq sülh şəraitində yaşayırıq, hələlik cəmi yeddi aydır. Bu, bir daha göstərir ki, sülh və ədalət uğrunda güclü siyasi iradə, cəsarət və sadiqlik nümayiş etdirmək kifayətdir ki, məqsədə nail olunsun”.

Dövlət başçısının sözlərinə görə, biz işğal olunmuş əraziləri güc vasitəsilə azad etdik və sülhə siyasi yollarla nail olduq. “Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olması da nadir bir vəziyyətdir: 2023-cü ilin sentyabrında baş verən son qanlı toqquşmadan 2025-ci ilin avqustunda sülhün əldə edilməsinə qədər müddət iki ildən az çəkdi. Hesab edirəm ki, bu, normallaşmanın görünməmiş sürətidir və güclü siyasi iradənin mövcudluğu və düşmənçiliyin əbədiyyətə qədər davam edə bilməyəcəyinin, müharibənin sona çatmalı olduğunun dərk edilməsi sayəsində mümkün oldu. Biz artıq sülhün üstünlüklərini görürük. Mən bunu dəfələrlə demişəm və bir daha təkrar edəcəyəm: sülhdən daha yaxşı heç nə yoxdur”, - Prezident İlham Əliyev bildirib.

## BEYNƏLXALQ DAVRANIŞ STRUKTURUNA TƏHDİD

Prezident qeyd edib ki, dünyada hazırda baş verənlər - yeni gərginlik nöqtələrinin yaranması və uzunmüddətli mövcud münaqişələr beynəlxalq davranış strukturuna təhdid təşkil edir. Bu, həmçinin beynəlxalq hüquqa təhdiddir. Beynəlxalq hüquqa və normalara hörmət edilməyəndə və beynəlxalq təşkilatların qətnamələri nəzərə alınmayanda ölkələrin ərazi bütövlüyü pozulur: “İşğala, etnik təmizləməyə və soyqırımına məruz qalmış, suverenliyini, ərazi bütövlüyünü və ləyaqətini güc tətbiqi ilə bərpa etmiş, daha sonra isə o zaman məğlub olmuş düşmənə sülh təklif etmiş ölkə olmağımız - hesab edirəm ki, bu, beynəlxalq ictimaiyyətlə paylaşa biləcəyimiz nadir bir təcrübədir”.

Dövlət başçısının sözlərinə görə, biz uzunmüddətli deyil, əbədi sülhə sadiqik: “Bu, bizim strategiyamız və siyasətimizdir və bir daha onu nümayiş etdirir ki, Azərbaycan sülhsevər ölkədir. İkinci Qarabağ müharibəsi və daha sonra antiterror əməliyyatı zamanı bizi ittiham edənlər ya uzaqgörən deyildilər, ya da qərəzli idilər. Çünki bizim gördüyümüz hər bir iş beynəlxalq hüquqa uyğun idi, biz gücdən istifadə edərək sülhə nail olduq və bu gün bunu nümayiş etdiririk”.

### “BİZ PROQNOZLAŞDIRILABİLƏN NEFT QİYMƏTİNİN TƏRƏFDARIYIQ”

Prezident dünyanın enerji bazarında baş verən son proseslərə də toxunub: “Biz görürük ki, neft və qaz qiymətlərinin kəskin yüksəlişi yalnız istehlakçılar üçün deyil, geniş mənada bir çox problemlər yaradır. Kimsə düşünürsə ki, bu tarazlaşdırılmamış qiymət neft istehsalçıları və ixracatçıları üçün faydalıdır, bu yanlışdır. Çünki bir çox ölkələrin, neft və digər faydalı yanacaq istehsal və ixrac edən ölkələrin suveren fondları var və bu fondlar müxtəlif maliyyə alətlərinə, o cümlədən istiqrazlara investisiya qoyurlar. Birjalar çökdükdə isə bu ölkələr yüksək neft qiymətindən qazandıqlarından daha çox itkiyə məruz qalırlar. Buna görə də biz OPEC+ formatının məsuliyyətli üzvü olaraq, tarazlı və proqnozlaşdırılabilən neft qiymətinin tərəfdarıyıq, ortaq həllin tapılmasına böyük səylər göstərmişik və OPEC+-dakı vasitəçilik fəaliyyətimiz yüksək qiymətləndirilir”.




## “DƏHLİZLƏR ÜZRƏ ƏVƏZOLUNMAZ TƏRƏFDAŞIQ”

Prezident İlham Əliyev mövcud çağırışlar kontekstində bağlılıq mövzusuna da toxunub. Onun sözlərinə görə, münaqişələr ənənəvi nəqliyyat marşrutlarının pozulmasına səbəb olur. Bu, insanlar, ölkələr, iqtisadiyyat və tədarük zəncirləri üçün böyük çətinliklər yaradır: “Bağlılıq və nəqliyyat marşrutları pozulduqda dünya ölkələrinin əksəriyyəti çox çətin vəziyyətlə üzləşir. Azərbaycan qazıntı yanacağı növlərinin satışından əldə etdiyi gəlirlər sayəsində nəqliyyat və logistika infrastrukturuna böyük sərmayə yatırıb. Bu gün biz Şərq-Qərb və Şimal-Cənub dəhlizləri üzrə əvəzolunmaz tərəfdaşıq və əslində, həm Orta Dəhlizdə, həm də Şimal-Qərb dəhlizində fəal iştirak edən və investisiya yatıran yeganə ölkəyik”.

### “ORTA DƏHLİZİN YENİ İSTİQAMƏTİ ÜZƏRİNDƏ YAXINDAN İŞLƏYİRİK”

Dövlət başçısı qeyd edib ki, Azərbaycan mövcud dəhlizlərin yükaşırma qabiliyyətinin artırılmasına əlavə vəsait yatırır, çünki ölkəmizin ərazisindən istifadəyə tələbat artır: “Biz çox ölkələr, həm Azərbaycanın şərqində, həm də qərbində yerləşən ölkələrin mühüm tranzit ehtiyaclarını təmin edirik. Hazırda isə Ermənistanla sülh əldə edildikdən sonra Orta Dəhlizin yeni istiqaməti üzərində yaxından işləyirik, bu istiqamət Ermənistan ərazisindən keçəcək. Ermənistan isə bu gün belə olmadığı halda, müstəqil tarixində ilk dəfə tranzit ölkəsi olacaq. Bu isə bizə Azərbaycanın iki hissəsini – əsas hissəsi və Naxçıvan Muxtar Respublikasını davamlı nəqliyyat, enerji, optik kabel və elektrik xətləri, həmçinin potensial olaraq boru kəmərləri vasitəsilə birləşdirməyə imkan verəcək. Beləliklə, bu, bizim üçün, yəni ümumilikdə hamı üçün qarşılıqlı uduşlu vəziyyət yaradacaq”.

# BAKI VƏ BRÜSSEL ƏMƏKDAŞLIĞI GENİŞLƏNDİRİR

Azərbaycan Avropa İttifaqının əsas tərəfdaşlarındandır. Xüsusilə də enerji və nəqliyyat sahələrində yüksək səviyyəli əməkdaşlıq var. Tərəflər hazırda daha sıx əməkdaşlıq üçün yeni çərçivə üzərində işləyirlər.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az



Yaxın Şərqdə yaşanan gərginlik, dünyanın enerji bazarındakı şok dalğalanmalar fonunda Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın Azərbaycana səfəri, Prezident İlham Əliyevlə apardığı müzakirələr dünyanın diqqətindədir. Xüsusilə də enerji təhlükəsizliyi sahəsində Avropa İttifaqı-Azərbaycan əməkdaşlığına xüsusi vurğu edilməsi bu səfərin köhnə qitə üçün nə dərəcədə əhəmiyyətli olduğunu bir daha ortaya qoyur. Prezidentlərin mətbuata birgə bəyanatlarında Brüssel-Bakı əlaqələrindəki müsbət dinamikanı davamlı olaraq qeyd etmələri tərəflərin gələcəkdə də bu tempi saxlamaq və daha da inkişaf etdirmək iradəsinin göstəricisi kimi dəyərləndirilir.

### TƏRƏFDAŞLIĞIN FƏAL MƏRHƏLƏSİ

Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, Aİ və Azərbaycan müxtəlif səviyyələrdə tərəfdaşlığın fəal mərhələsindədirlər: "Bu ilin yanvarında ticari dövriyyəmizin 50 faizi Avropa İttifaqı ilə bağlı olub. Əminəm ki, yeni layihələr və yeni investisiya imkanları ilə sərmayələr iki istiqamətdə yatırılacaq. Hazırda biz, həmçinin Avropada fəal şəkildə sərmayə yatırırıq. Ticari dövriyyəmiz birmənalı olaraq artacaq".

### AZƏRBAYCAN AVROPA ÖLKƏLƏRİNƏ QAZ İXRACINI ARTIRIB

Dövlət başçısı tərəflər arasında enerji əməkdaşlığından da danışıb. Onun sözlərinə görə, 2022-ci ildə Enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında sənəd imzalandıqdan sonra Azərbaycan həm həcm, həm də ölkələrin sayı baxımından Avropa ölkələrinə qaz ixracını artırıb. Hazırda Avropa İttifaqının 10 üzvü Azərbaycandan qaz qəbul edir: "Bizim üçün Avropa bazarı artım potensialına malik ümumi qaz ixracımızın yarısını təşkil edir".

Prezident İlham Əliyev qeyd edib ki, enerji sahəsində əməkdaşlığımızın digər istiqaməti bərpaolunan enerji ilə bağlıdır. Onun da böyük potensialı var: "Biz külək, Günəş və su elektrik enerjisinə böyük sərmayələr yatırırıq. Planımız beş və ya altı il ərzində ixraca hazır olan 6-8 giqavatlıq bərpaolunan enerjiyə malik olmaqdır".

## DAHA SIX ƏMƏKDAŞLIQ ÜÇÜN YENİ ÇƏRÇİVƏ

Antonio Koşta isə qeyd edib ki, Azərbaycan Aİ-nin əsas tərəfdaşıdır: "Ötən bir il ərzində biz münasibətlərimizi yenidən canlandırmışıq. Bugünkü görüş bizim xüsusilə təhlükəsizlik, enerji, rəqəmsal və nəqliyyat sahələrində əməkdaşlığın daha da inkişaf etdirilməsinə olan birgə öhdəliyimizin bariz əlamətidir. Təhlükəsizlik və insan haqları da daxil olmaqla, mövcud dialoq mexanizmlərindən tam şəkildə istifadə etmək məqsədilə hazırda biz Avropa İttifaqı ilə Azərbaycan arasında daha sıx əməkdaşlıq üçün yeni çərçivə üzərində işləyirik. Bu, bizim



gələcəyə birgə baxışımıza dair güclü siqnal verir. Biz, həmçinin müdafiə və təhlükəsizlik sahələrində əməkdaşlığımızı dərinləşdirmək üçün yollar araşdırırıq".

### AVROPALI SƏRMAYƏDARLARA ÇAĞIRIŞ

Antonio Koşta da qeyd edib ki, enerji təhlükəsizliyi ikitərəfli əməkdaşlığımızın təməlini təşkil edir: "İrandakı müharibənin qlobal enerji bazarlarını sarsıtdığı bir vaxtda bizim enerji sahəsində hazırkı tərəfdaşlığımız heç zaman olmadığı kimi daha əhəmiyyətlidir. Avropa İttifaqı Azərbaycanın enerji keçidini dəstəkləmək üçün özəl investisiyaları və maliyyələşməni səfərbər etməyə hazırdır. Biz, həmçinin Avropanın təmiz texnologiyalar sahəsində fəaliyyət göstərən şirkətlərini sizin geniş planınızda daha fəal iştirak etməyə çağırırıq".

## "BİZİM TƏRƏFDAŞLIĞIMIZ GÜCLÜDÜR"

Aİ üçün Azərbaycanla əməkdaşlıqda təbii ki, digər mühüm və strateji istiqamət tranzit daşımaları ilə bağlıdır. Bu məqam da Koştanın səfəri çərçivəsində geniş müzakirə olunub. Onun sözlərinə görə, Orta Dəhlizin inkişafı yeni nəqliyyat bağlantıları üçün strateji fürsətdir: "Bakı-Naxçıvan dəmir yolu əlaqəsinin tamamlanması bu mənada böyük əhəmiyyət kəsb edəcək. Avropa ilə Asiya arasında ticarət dayanıqlılığını gücləndirməklə biz iş yerləri yarada, artımı stimullaşdıra və iqtisadiyyatlarımızı birlikdə gücləndirə bilərik. Avropa İttifaqı Azərbaycanın dinc, sabit, qarşılıqlı əlaqələrə əsaslanan və çiçəklənən Cənubi Qafqaz hədəfini bölüşür. Ermənistanla sülh prosesində əldə edilən irəliləyiş tarixi əhəmiyyət kəsb edir".

Antonio Koşta qeyd edib ki, qlobal sabitsizlik fonunda əlaqələri gücləndirmək heç zaman olmadığı qədər vacibdir: "Avropa İttifaqı bu günün çağırışlarını sabahın fürsətlərinə çevirmək üçün Azərbaycanla işləməyə sadiqdir. Sizin rəhbərliyiniz zəruridir və bizim tərəfdaşlığımız güclüdür. Biz onu xalqlarımızın rifahı naminə birlikdə daha da genişləndirə bilərik".

### ƏMƏKDAŞLIĞIN DİGƏR İSTİQAMƏTLƏRİ

Bakı ilə Brüssel arasındakı əlaqələrin dərinləşdirilməsi istiqamətləri tək enerji və tranzitlə məhdudlaşmır. Prezidentlərin görüşündən sonra açıqlanan birgə bəyanatın mətnində də qeyd olunur ki, tərəflər münasibətlərin daha da inkişaf etdirilməsi üçün möhkəm hüquqi çərçivə yaradacaq yeni əhatəli ikitərəfli saziş üzrə danışıqların tez bir zamanda yekunlaşdırılmasına sadiqliklərini bir daha vurğulayıblar. Prezidentlər "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in həyata keçirilməsinin ticarət, daşımalar, sərmayə, iqtisadi dayanıqlılıq və təmiz enerji daxil olmaqla, müvafiq prioritet sahələrdə Azərbaycan-Aİ əməkdaşlığını genişləndirmək üçün imkanlar yaratdığını qeyd ediblər. Bundan əlavə, mütəşəkkil cinayətkarlıq, terrorçuluq, ekstremizm, silah və narkotiklərin qanunsuz dövriyyəsi, çirkli pulların yuyulması, insan alveri və qeyri-düzgün miqrasiya kimi ortaya çıxan təhdidlərin qarşısını almaq məqsədilə müdafiə və təhlükəsizlik sahələrində daha sıx əməkdaşlığın faydası önə çəkilib. Rəqəmsal transformasiya və innovasiya sahələrində əməkdaşlığın gücləndirilməsinin vacibliyi qeyd olunub. Liderlər İranda və Ukraynada baş verən son hadisələr də daxil olmaqla, əsas cari geosiyasi məsələləri müzakirə ediblər.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi




# GƏRGİN REGİONDA düşünülmüş siyasət

Azərbaycan rəhbərliyi İran böhranı ilə bağlı yalnız diplomatik addımlar atmır. Müxtəlif ölkələrin vətəndaşlarının təxliyəsinə şərait yaratmaqla yanaşı, İrana humanitar yardım da göndərilir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Bölgəmizə yaxın və birbaşa sərhədimizdə yerləşən dövlətlərlə bağlı yaşanan gərginliklər Azərbaycandan düşünülmüş, ardıcıl siyasət yürütməyi tələb edir. Son illərdə milli maraqlarımızın müdafiəsi, təhlükəsizliyin təmin olunması istiqamətində atılan addımlar İran müharibəsi fonunda da davam edir. Sirr deyil ki, İran gərginliyi Azərbaycana da təsirsiz ötüşmür. Lakin dövlətin ali rəhbərliyinin bu çətin və qarışıq şəraitdə atdığı addımlar, həyata keçirilən siyasi kursun başlıca prioriteti qarşıdurmaların Azərbaycanı hədəfə almasını önləməkdir. Bu strategiya uğurla həyata keçirilir.

### BALANSLI VƏ ÇOXVEKTORLU XARİCİ SİYASƏT

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan balanslı və çoxvektorlu xarici siyasət həyata keçirir. Milli maraqlar üstün tutulmaqla beynəlxalq və regional güc mərkəzləri ilə qarşılıqlı bərabərhüquqluluq prinsipləri əsasında qurulan əməkdaşlıq, balansın qorunması İran müharibəsi ilə bağlı atılan addımlarda da əsas təşkil edir. Rəsmi Bakı yaranmış vəziyyətdən narahatdır. Lakin bu narahatlıq tək bəyanatla yox, sülh və sabitliyin təmini, münaqişənin dinc insanlar üçün yaratdığı çətinliklərin azaldılması istiqamətində verilən qərarlarda da özünü göstərir. Rəsmi Bakı səssiz diplomatiya ilə bölgəmizdə sülh və sabitliyin əldə edilməsi üçün hər şeyi edir. Yuxarıda qeyd etdiyimiz kimi, müharibənin bütün tərəfləri ilə qurulan münasibətlər Azərbaycanın sözügedən məsələ ilə bağlı diplomatik manevr imkanlarını genişləndirir. Ölkəmizin beynəlxalq nüfuzu və qlobal miqyasda artan rolu özünü mülki obyektlərə hücumlar zamanı dünya ölkələri tərəfindən göstərilən dəstəyin miqyasında da büruzə verdi.



## HUMANİTAR YARDIM TƏŞƏBBÜSÜ

İrandakı müharibə ilə bağlı Azərbaycan tək diplomatik yox, həm də humanitar addımlar atır. İran Prezidenti Məsud Pezeşkianın Prezident İlham Əliyevlə son telefon danışığından sonra qarşı tərəfin istəyi əsasında Azərbaycan münaqişədən əziyyət çəkən mülki vətəndaşlara humanitar yardım karvanı göndərib. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq 30 tondan artıq humanitar yardıma 10 ton un, 6 ton düyü, 2,4 ton şəkər, 4 tondan artıq içməli su, 600 kiloqrama yaxın çay, həmçinin 2 tona yaxın dərman və tibbi ləvazimatlar daxildir.

Rusiya Fövqəladə Hallar Nazirliyinin xüsusi reysi ilə İrana çatdırılması üçün də Azərbaycana tibbi ləvazimatlar göndərilib. Tibbi ləvazimatlar İran İslam Respublikası hökumətinin səlahiyyətli nümayəndələrinə təhvil verilməsi üçün Azərbaycana çatdırılıb. Humanitar yardım 13 ton tibbi ləvazimatlardan ibarət olub.

### DÖVLƏT SİYASƏTİNİN ƏSASLARINDAN BİRİ

Bu addımlar bir daha göstərir ki, humanizm prinsipi Azərbaycanın dövlət siyasətinin əsaslarından biridir. Hazırkı vəziyyətdə İrana humanitar yardım göndərilməsi də məhz beynəlxalq humanitar hüququn prinsiplərinə uyğun addım kimi dəyərləndirilir. Ümumiyyətlə, Azərbaycan müxtəlif dövrlərdə müharibə və təbii fəlakətlərdən zərər çəkmiş ölkələrə yardım göstərib. Məhz bu siyasət çərçivəsində davam edən müharibə fonunda Azərbaycan dəfələrlə Ukraynaya da humanitar yardımlar göndərib. Bu siyasət Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilir.

Azərbaycanın həm müxtəlif ölkələrlə əməkdaşlıq əlaqələrini davam etdirməsi, həm də humanitar təşəbbüslərdə fəal iştirakı ölkənin mürəkkəb geosiyasi şəraitdə balanslaşdırılmış xarici siyasət kursu həyata keçirdiyini göstərir.

## 65-DƏN ÇOX ÖLKƏNİN VƏTƏNDAŞI TƏXLİYƏ OLUNUB



Dövlət başçısının tapşırıqlarına uyğun olaraq münaqişənin ilk günündən etibarən istər ölkə vətəndaşlarının, istərsə də xarici ölkə vətəndaşlarının qaynar zonadan təhlükəsiz təxliyəsi üçün addımlar atılır. Artıq 1300-dən artıq insan İran-Azərbaycan sərhədini rahat şəkildə keçmək imkanından yararlanıb. Bu proses indi də davam edir. Dünyanın 65-dən çox ölkəsinin vətəndaşlarının təhlükəsiz keçidinə şərait yaradılması ilə bağlı Azərbaycana müraciətlərin yüksək səviyyədə müsbət cavablandırılması da təqdirlə qarşılanır.

Bir çox dövlətlərin rəhbərləri Prezident İlham Əliyevlə əlaqə saxlayaraq öz təşəkkürlərini bildirirlər. Martın 11-də Rusiya Prezidenti Vladimir Putin azərbaycanlı həmkarı İlham Əliyevə zəng edib. O, Rusiya vətəndaşlarının İran İslam Respublikasından təxliyəsində göstərilən operativ köməyə, həmçinin ölkəsinin İrana göndərdiyi humanitar yardımın Azərbaycan ərazisindən keçməsinə yaradılmış şəraitə görə dövlət başçısına minnətdarlığını bildirib.

Fransa Prezidenti Emmanuel Makron da Prezident İlham Əliyevə zəng edərək İrandakı Fransa vətəndaşlarının Azərbaycan vasitəsilə təxliyəsinə yaradılmış şəraitə görə dövlət başçısına minnətdarlığını bildirib.

İran ətrafında baş verən proseslərlə bağlı müxtəlif ölkələrin Azərbaycanla sıx təmaslar qurması ölkəmizin beynəlxalq nüfuzunun göstəricisidir.

# DÜNYANI DƏYİŞƏN İKİ HƏFTƏ

İsrail və ABŞ-nin İranla müharibəsinin arealı getdikcə daha geniş coğrafiyaya yayılır. Tərəflərin açıqlamaları da sülhün hələ yaxın olmadığı görüntüsünü yaradır.

F. ABBASOĞLU

İrana qarşı İsrail və ABŞ-nin başlatdığı müharibənin iki həftəsi tamam oldu. Münaqişənin arealı getdikcə daha geniş coğrafiyaya yayılır. Tərəflərin bəyanatları da hər iki tərəfin atəşkəs və ya danışıqlara hazırlaşmadığından xəbər verir.

İranın yeni seçilən dini lideri Müctəba Xamenei xalqa müraciətində bildirib ki, qonşu ölkələrlə dostluğa inanır, amma onların ərazilərindəki ABŞ-nin hərbi bazaları bağlanmalıdır: "ABŞ-nin bazaları bağlanmasa, onlara hücumlar davam etdiriləcək". Xamenei həmçinin İsrail və ABŞ ilə münaqişənin davam etməsi halında "yeni cəbhələr açacağını" da vəd edib.

ABŞ Prezidenti Donald Tramp isə "Fox News"a verdiyi müsahibədə əsas işlərin yaxşı getdiyini bildirib. "Biz onların raketlərinin əksəriyyətini, dronlarını, raket və dron istehsalı müəssisələrini məhv etdik. Biz onları İkinci Dünya müharibəsindən bəri heç kimin yaşamadığı bir güclə vururuq", - deyə o bildirib.

İsrailin Baş naziri Benyamin Netanyahu isə bildirib ki, İsrailin hücumları nəticəsində İranın bir neçə nüvə alimi həlak olub. O, İran üçün "azadlığa aparan yeni bir yolun yaxınlaşdığını" və ölkənin gələcəyinin vətəndaşlarından asılı olduğunu bildirib.



## İRANDAN TÜRKİYƏ VƏ OMANA HÜCUM

İran tərəfdən qonşu ölkələrin ərazilərinə raket və dron hücumları da davam edir. Türkiyə Milli Müdafiə Nazirliyi İrandan növbəti ballistik raketin atıldığını təsdiqləyib. Məlumatda bildirilib ki, İrandan atılaraq Türkiyənin hava məkanına daxil olan bir ballistik raket Şərqi Aralıq dənizində yerləşən NATO hava hücumundan müdafiə qüvvələri tərəfindən zərərsizləşdirilib: "Ölkəmizin ərazisinə və hava məkanına yönəlmiş hər cür təhdidə qarşı bütün lazımi tədbirlər qətiyyətlə və tərəddüdsüz şəkildə görülür, hadisənin bütün aspektləri ilə aydınlaşdırılması üçün müvafiq ölkə ilə danışıqlar aparılır". Omanın Sohar vilayətində isə pilotsuz uçuş aparatının düşməsi nəticəsində iki nəfər həlak olub. Bundan əlavə, bir neçə nəfər yaralanıb. PUA Əl-Əvahi sənaye rayonuna düşüb. Həlak olanlar xarici vətəndaşlar olub.

### İTKİLƏR HƏR KEÇƏN GÜN ARTIR

Son məlumatlara görə, ABŞ və İsrailin İran ərazisinə hücumları nəticəsində 24,5 mindən çox mülki obyekt, o cümlədən 19,77 min yaşayış binası zədələnib. Bu barədə İran Qızıl Aypara Cəmiyyətinin rəhbəri Hüseyn Kolivənd bildirib. Onun sözlərinə görə, 4,5 mindən çox ticarət obyektinə ziyan dəyib.

İrana qarşı əməliyyatın başlanmasından (28 fevral) bu günə kimi İsrail xəstəxanalarına 2 975 nəfər çatdırılıb, onlardan 85-i hazırda müalicə altındadır. Bu barədə ölkənin Səhiyyə Nazirliyindən bildirilib. Qeyd olunub ki, bu göstəriciyə həm mülki şəxslər, həm də hərbi qulluqçular daxildir. Xəstəxanaya yerləşdirilənlərdən 9 nəfərin vəziyyəti ağırdır.

ABŞ-nin itkiləri də artıb. Bu ölkəyə məxsus "KC-135" tipli yanacaq dolduran təyyarənin İraq üzərində qəzaya uğraması nəticəsində altı nəfər həlak olub. Bu barədə ABŞ Silahlı Qüvvələri Mərkəzi Komandanlığının (CENTCOM) "X" hesabında məlumat verilib.

### HÖRMÜZ MÜƏMMASI DAVAM EDİR

Davam edən hərbi qarşıdurma ilə bağlı dünyanı narahat edən ən ciddi problemlərdən biri Hörmüz boğazı ətrafında yaranmış vəziyyətdir. İranın hədələri fonunda boğazın fəaliyyətinin iflic duruma düşməsi dünyada neft və qazın qiymətinin kəskin artımına səbəb olub.

"Politico" nəşri bildirir ki, ABŞ və İsrailin İrana qarşı hərbi əməliyyatı tezliklə başa çatsa belə, dünya bazarlarında neftin qiyməti ən azı bir neçə ay yüksək qala bilər. Qeyd olunub ki, ABŞ administrasiyası Hörmüz boğazından tədarükün pozulması nəticəsində yaranan "neft və benzin qiymətlərinin kəskin artması"nın əhəmiyyətini azaltmağa çalışır və qiymətlərin qısa müddət ərzində yüksək səviyyədə qalacağına zəmanət verir. Lakin qəzetin jurnalistlərinə müsahibə verən bəzi analitiklər Körfəz ölkələrində enerji bazarlarındakı pozuntuların əhəmiyyətli olduğunu və sürətli bir bərpanın artıq mümkün olmadığını qeyd ediblər. Nəşr bildirir ki, Bəhreyn, İraq, Qətər və Səudiyyə Ərəbistanının neft və qaz infrastrukturu asanlıqla bərpa edilə bilməyən ciddi ziyana məruz qalıb.



Donald Tramp



Müctəba Xamenei

## Rusiyaya qarşı sanksiya müvəqqəti ləğv edilib

İran tərəfdən də məsələ ilə bağlı təhdid mesajları səngimir. "İranın enerji obyektlərinə hücum ediləcəyi təqdirdə, Yaxın Şərqdəki ABŞ ilə əlaqəli bütün neft və qaz infrastrukturunu məhv edəcəyik", - deyə İran Silahlı Qüvvələrinin "Xatəm əl-Ənbiya" Qərargahının rəsmisi bildirib.

Yaranmış böhran fonunda ABŞ gəmilərə martın 12-ə qədər yüklənmiş Rusiya neft və neft məhsullarının satışına tətbiq etdiyi sanksiyaları müvəqqəti olaraq ləğv edib. Bu barədə ABŞ Maliyyə Nazirliyi tərəfindən verilən ümumi lisenziyada qeyd olunub. Bildirilib ki, qərar aprelin 11-ə kimi qüvvədədir. Məlumata görə bu, İrana və ya İran mənşəli mal və xidmətlərlə əlaqəli əməliyyatlara, fəaliyyətlərə şamil edilmir. ABŞ-nin maliyyə naziri Skott Bessent bu lisenziyanı qlobal enerji bazarlarında sabitliyi gücləndirmək üçün atılan addımlardan biri kimi qiymətləndirib. Onun sözlərinə görə, bu addım mövcud tədarükün qlobal əhatə dairəsini artıracaq.

# BÖYÜK POTENSİAL, ZƏİF ARTIM

Azərbaycanda iqtisadi inkişafı sürətləndirmək üçün yaxşı perspektivlər var. Yüksək valyuta ehtiyatları, aşağı dövlət borcu və sabit fiskal göstəricilər iqtisadi inkişafa daha güclü təkan verməlidir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycan iqtisadiyyatında mövcud artım templəri ölkənin real potensialına uyğun gəlmir. "Vergi sistemində gələcəyə baxış: yeni idarəetmə modeli və data əsaslı qərarlar" Forumunda çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, hazırkı iqtisadi artım göstəriciləri qənaətbəxş deyil və Azərbaycanın malik olduğu imkanları tam əks etdirmir. Nazir vurğulayıb ki, ölkənin yüksək valyuta ehtiyatları, aşağı dövlət borcu və sabit fiskal göstəriciləri güclü iqtisadi və maliyyə dayaqlarının mövcudluğunu göstərsə də, bu üstünlüklər hələlik daha sürətli və dayanıqlı iqtisadi inkişafa çevrilə bilməyib. Bu baxımdan hökumətin qarşısında duran əsas vəzifə yeni və daha dayanıqlı iqtisadi artım mənbələrinin formalaşdırılmasıdır. Baş nazirin müavini Samir Şərifov isə bildirib ki, kölgə iqtisadiyyatının azaldılması, biznes mühitinin yaxşılaşdırılması, qeyri-neft sektorunun genişləndirilməsi və rəqəmsal həllərə əsaslanan rəqabətqabiliyyətli istehsalın təşviqi orta və uzunmüddətli dövrdə iqtisadi artımın sürətləndirilməsində həlledici rol oynayacaq.

### "CARİ İLDƏ İQTİSADİ ARTIM 1,4 FAİZ OLUB"

Bakı Ali Neft Məktəbinin Biznesin idarə edilməsi kafedrasının müdiri Altay İsmayılovun sözlərinə görə, son illər Azərbaycan iqtisadiyyatında 1-3 faiz aralığında iqtisadi artım qeydə alınır ki, bu da aşağı göstərici hesab olunur: "İnkişaf etməkdə olan ölkələr üçün iqtisadi artım tempi 5–7 faizdən aşağı olmamalıdır ki, müəyyən müddətdən sonra daha yüksək inkişaf səviyyəsinə keçid mümkün olsun. İqtisadiyyatda "70-lər qaydası" deyilən bir yanaşma da mövcuddur. Bu qayda bir ölkədə vətəndaşların gəlirlərinin iki dəfə artması üçün nə qədər vaxt lazım olduğunu göstərir. Belə ki, 70 illik əmsal illik artım faizinə bölünür. Cari ildə iqtisadi artım 1,4 faiz olub. 70-i 1,4 faizə böldükdə təxminən 50 il alınır. Gəlirlərin ikiqat artması üçün 50 il gözləmək isə arzuolunan hal deyil".

A.İsmayılov bildirdi ki, Azərbaycanın kifayət qədər valyuta ehtiyatları mövcuddur. Bu qədər ehtiyat olduğu halda aşağı inkişaf tempində qalmaq məqsədəuyğun deyil.

### "XARİCİ İNVESTORLARIN CƏLBİ VACİBDİR"

Müsahibimizin fikrincə, ölkə iqtisadiyyatı hələ də neftdən asılıdır. Bu asılılıq dayanıqlı inkişafın qarşısında əsas maneələrdən biridir: "Dayanıqlı prosesə keçid yalnız şaxələndirilmiş iqtisadiyyatla mümkündür. Bu baxımdan, qeyri-neft sektoru inkişaf etdirilməli, yüksək əlavə dəyər yaradan sahələrə investisiyalar artırılmalıdır. Təhsil və insan kapitalına yatırımlar gücləndirilməli, sistemli islahatlar aparılmalıdır. İqtisadiyyata daha çox dinamika gətirmək üçün xarici investorların cəlbi vacibdir. Bu, həm yeni iş yerlərinin açılmasına, həm də yeni texnologiyaların tətbiqinə şərait yaradır. Bunun üçün məhkəmə, vergi və bank sistemlərində təkmilləşdirmələr aparılmalıdır ki, xarici investorlar sərmayə yatırmağa maraqlı olsunlar".

## "İQTİSADİ AKTİVLİK DÖVLƏT İNVESTİSİYALARINDAN ASILIDIR"

A.İsmayılovun sözlərinə görə, hazırda iqtisadi aktivlik əsasən dövlət investisiyalarından asılıdır. Dövlət investisiyaları artdıqda iqtisadiyyatda canlanma müşahidə olunur: "Lakin iqtisadiyyatın yalnız dövlət hesabına canlandırılması dayanıqlı model deyil. Bu səbəbdən özəl sektor mütləq inkişaf etdirilməlidir. Bu istiqamətdə müəyyən addımlar atılsa da, ümumilikdə biznesin qarşısındakı maneələr aradan qaldırılmalı və spesifik təşviq sisteminə keçilməlidir. Kiçik və orta biznesin iqtisadiyyatda rolu artırılmalıdır. Özəl sektor lokomotiv rolunu oynamalıdır ki, iqtisadiyyat dövlət asılılığından çıxsın". Azərbaycan Şimal-Cənub və Şərq-Qərb dəhlizlərində tranzit rol oynayır. Ekspertin fikrincə, bu üstünlükdən istifadə edərək logistika və tranzit iqtisadiyyatı formalaşdırılmalıdır: Gələcəkdə yükdaşımaların artma ehtimalı yüksəkdir və buna indidən hazır olmaq lazımdır. Turizm və xidmət sektoruna da yenidən baxılmalı, aqrar sektorda isə kənd təsərrüfatı məhsullarının emalı və aqrar sənayenin inkişafı prioritet istiqamətlərdən olmalıdır".

### "SAHİBKARLARIN XARİCİ BAZARLARA ÇIXIŞI OLDUQCA ÇƏTİNDİR"

İqtisadçı Asif İbrahimli bildirir ki, qeyri-neft sektorunun inkişafından müəyyən gəlir əldə olunsa da, bu sahə hələlik özü-özünü dayanıqlı şəkildə inkişaf edə bilmir: "Bunun əsas səbəbi mövcud problemlər və istehsal xərclərinin yüksək olmasıdır. İstehsal etmək istədiyimiz məhsulların Azərbaycanda baha başa gəlməsinin bir sıra səbəbləri var. Əsas səbəb isə mövcud iqtisadi modelin yenilənməsinə ehtiyacın olmasıdır. Bu istiqamətdə köklü islahatlar aparılmalı, iqtisadiyyat şaxələndirilməlidir. İqtisadi qanunvericilikdə ciddi dəyişikliklər edilməlidir. Sahibkarların xarici bazarlara çıxışı olduqca çətindir. Ən böyük bazarlar olan ABŞ və Avropa İttifaqı ilə Azərbaycanda tətbiq olunan qanunvericilik arasında uyğunluq yoxdur".

A.İbrahimlinin sözlərinə görə, gömrük tariflərində problemlər mövcuddur, logistika xərcləri də yüksəkdir. Xüsusilə hava daşımaları ilə bağlı qiymətlər baha başa gəlir: "Məsələn, eyni aviayüklərin Gürcüstandan daşınması daha sərfəlidir. Qanunverici mexanizmlərdə də çatışmazlıqlar var. Qanunvericilik elə qurulmalıdır ki, sahibkar fəaliyyətə başladığı andan iri bazarların prosedurlarına uyğun işləyə bilsin, əlavə konsultant dəvət etməyə ehtiyac qalmasın və heç bir məlumat çatışmazlığı ilə üzləşməsin".

İqtisadçı qeyd edir ki, üfüqi və şaquli məsuliyyət bölgüsü yenidən həyata keçirilməli, bir sıra proseduralar sadələşdirilməlidir. Onun sözlərinə görə, ÜDM-in artım tempinin aşağı olması iqtisadiyyatda problemlərin olduğunu göstərir. Artımın sürətləndirilməsi üçün qeyri-neft sektorunun inkişafına xüsusi önəm verilməlidir. Bunun üçün dünyada tətbiq olunan inkişaf modellərinin ölkə şəraitinə uyğun şəkildə tətbiqi vacibdir".



# KANADA "ORTA DÖVLƏTLƏR" ALYANSI YARADIR

**Kanada ABŞ təzyiqləri qarşılığında özünə yeni müttəfiqlər axtarır. Baş nazir Mark Karni Hindistan, Avstraliya və Yaponiyanı bir alyansda birləşməyə çağırıb.**



**AZƏR NURİYEV**

Kanadanın Baş naziri Mark Karni qlobal dünya nizamının dağıldığı şəraitdə "orta dövlətlər" koalisiyasının « formalaşdırılmasına çağırış edib. Təşəbbüs ticarət müharibəsi fonunda iqtisadi maraqların qorunmasına və super güc olmayan ölkələr arasında əməkdaşlığın gücləndirilməsinə yönəlib. Məqsəd ABŞ-nin proteksionizmi və ticarət təzyiqindən qorunmaqdır. Blokun strategiyası ticarət əlaqələrinin diversifikasiyası və böyük dövlətlərin təsirindən kənarda maraqların müdafiəsi üçün alyansın formalaşdırılmasıdır.

Əksəriyyət hesab edir ki, bu çağırış ABŞ tərəfindən gələn ticarət çağırışlarına cavabdır və Kanadanın dəyişən geosiyasi şəraitdə beynəlxalq əməkdaşlığın yeni formalarını tapmaq istəyini əks etdirir. Avstraliyalı həmkarı Entoni Albanezi ilə görüşən Karni parlamentdəki çıxışında Hindistan, Avstraliya və Yaponiyaya müraciət edib. Bildirib ki, bu yeni koalisiyanın köməyi ilə ölkənin dünya arenasında mövqelərini möhkəmləndirmək və ABŞ-nin qeyri-sabit hakimiyyətindən asılılığı azaltmaq niyyətindədir.

### HƏR ŞEY DAVOSDAN BAŞLAYIB

Beynəlxalq arenanın böyük oyunçularından asılılığın azaldılması zərurəti barədə Karni ilk dəfə danışmır. Hər şey yanvar ayında Davosda - Dünya İqtisadi Forumunda başlayıb. O zaman Kanada hökumətinin başçısı təsirli bir çıxış edərək beynəlxalq münasibətlər sistemini tənzimləyən əvvəlki qaydaların artıq işləmədiyini qeyd edib. "Dünya hegemonlarının ağılsız davrandığı şəraitdə "orta dövlətlər" birləşməlidir. Bu, müstəqilliyi qorumağın və siyasi arenada çəkiyə malik olmağın yeganə imkanıdır", - deyə Karni vurğulayıb. Bu fikirləri Baş nazir öz ölkəsindəki tribunalardan dəfələrlə təkrarlayaraq, ABŞ-yə istiqamətlənmə ilə bağlı olmayan yeni müstəqil xarici siyasət kursu təklif etməyə hazır olduğuna işarə edib. "Bəli, dünyanı həmişə böyük dövlətlər idarə edəcək. Lakin dünya bir-birinə etibar edən, sürətli və məqsədyönlü fəaliyyət göstərən orta güclü dövlətlər tərəfindən də formalaşdırıla bilər", - Karni çıxışında deyib.



## "ŞƏRTLƏRİ DİKTƏ EDƏN" HEGEMONLAR

Əslində "böyük dövlətlər" və "orta dövlətlər"in dəqiq tərifi yoxdur. Kanada Baş naziri də heç vaxt birbaşa hansı ölkələri nəzərdə tutduğunu demir. Dinləyicilərinə yalnız təxmin etmək qalır ki, "şərtlər diktə edən" hegemonlar deyəndə Karni ilk növbədə ABŞ və Çini nəzərdə tutur. Böyük dövlətlərə ənənəvi olaraq BMT Təhlükəsizlik Şurasında daimi yerlərə malik Fransa, Rusiya və Böyük Britaniya da aiddir. "Orta dövlətlər" isə beynəlxalq arenada daha az nüfuzlu oyunçulardır. Bəziləri bu sırada, məsələn, Karninin səfər etdiyi Avstraliya, Hindistan və Yaponiyanı göstərirlər. Avropada isə "orta dövlətlər"ə hansı dövlətlərin şamil edildiyi məlum deyil. 2025-ci ilin avqustunda Kanada hökumətinin başçısı NATO-dakı Avropa müttəfiqləri olan Almaniya, Polşa, Latviyaya səfər edib. Ola bilsin ki, bu dövlətlərə də gələcək koalisiyaya qoşulmaq təklif edilsin.

Karninin Hindistanın Baş naziri Narendra Modi ilə görüşü də məhsuldar olub, lakin yalnız iki ölkənin münasibətləri baxımından. Bu, Kanada və Hindistanın ən azı diplomatik münaqişə vəziyyətində olduğu mürəkkəb dövrün sona çatmasını simvolizə edir. Yaponiyada isə baş nazir energetika, aerokosmik sənaye, kənd təsərrüfatı sahələrində əməkdaşlığın gücləndirilməsinə diqqət yetirib.

### KANADANIN SİYASƏTİNDƏKİ YENİ VURĞULAR

Karni "orta dövlətlər" koalisiyasından danışandan sonra Kanada siyasətində yeni vurğular meydana çıxıb. Bu, ölkənin cənub qonşusundan asılılığının xüsusilə böyük olduğu sahə olan müdafiəyə aiddir. Müttəfiqlərlə əməkdaşlığı gücləndirmə cəhdləri ilə yanaşı, Ottavada Avstraliya, Böyük Britaniya və ABŞ-nin daxil olduğu AUKUS müdafiə paktına qoşulmaqdan imtina edilib. Əvvəllər Kanada hökuməti bu birliyə böyük maraq göstərirdi. Şübhəsiz ki, kanadalıları planlarını dəyişdirməyə Donald Tramp administrasiyasının qeyri-sabit siyasəti məcbur edib.




## PROBLEMLƏRİ HƏLL ETMƏYƏ YÖNƏLMİŞ İDDİALI PLAN

Nəhayət, xarici siyasət əlaqələrinin gücləndirilməsi ilə yanaşı, Kanada hökuməti öz müdafiə sektorunu möhkəmləndirmək niyyətindədir və bu məqsədlə yeni hərbi sənaye strategiyasının reallaşdırılmasına 6,6 milyard dollar ayırıb. Rusiyalı politoloq Mariya Solyanova qeyd edib ki, bu, Kanada müdafiə sənayesinin əsas problemlərini həll etməyə yönəlmiş iddialı plandır.

Kanada həm də Avropadan kənarda Aİ-nin birgə müdafiə alışlarının güzəştli kreditləşdirmə mexanizminə qoşulan ilk dövlət olub. Kanada sənayesi üçün bu, yeni satış bazarlarına çıxış imkanı açır. "Bununla belə, bu qarşılıqlı fəaliyyətin real effektivliyi hələlik obyektiv amillərlə məhdudlaşır. Avropa istiqaməti miqyasına görə ABŞ bazarından əhəmiyyətli dərəcədə geri qalır. 2024-cü ildə müdafiə məhsullarının ABŞ-yə ixracı təxminən 1 milyard dollar təşkil edib, halbuki Almaniyaya göndərişlər ancaq 186 milyon dolları olub. Bundan əlavə, Aİ-də öz istehsalçılarından alışlara üstünlük verilməsi saxlanılır ki, bu da əlavə maneələr yaradır", - Solyanova qeyd edib.

Göründüyü kimi, Kanada ABŞ-nin təzyiqləri qarşılığında özünə yeni müttəfiqlər axtarır. Buna nail olmaq üçün isə irimiqyaslı fəaliyyətə keçib. Lakin bunun nə qədər effektli olacağı hələ ki, qeyri-müəyyəndir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# BAKININ CAZİBƏSİ KƏNDLƏRİ BOŞALDIR

Kənd əhalisinin şəhərlərə üz tutmasının arxasında sosiallaşma, mədəni tədbirlərə yaxınlıq, keyfiyyətli yaşam mühiti və nəqliyyat imkanlarının əlçatanlığı kimi amillər dayanır. Ekspertlər prosesin davam edəcəyi qənaətindədirlər.




SEVİNC ABBASOVA

BMT-nin hesablamalarına görə, 2050-ci ilə qədər dünya əhalisinin təxminən 70 faizi şəhərlərdə yaşayacaq. Əslində, bu, təkcə demoqrafik dinamika deyil, həm də iqtisadi modelin, əmək bazarının, sosial münasibətlərin və infrastruktur planlamasının transformasiyası deməkdir. Son illərdə ölkəmizdə də sürətli urbanizasiya gedir, kəndlər boşalır, əhali şəhərlərə köç edir. Rəsmi statistikaya əsasən, hazırda ölkə əhalisinin yarıdan çoxu şəhərlərdə yaşayır. Maraqlıdır, bu prosesin gələcəyi necə görülür?

### İQTİSADİ MƏRKƏZLƏŞMƏ ŞƏHƏR ƏHALİSİNİN SAYINI ARTIRIR

Millət vəkili Azər Allahverənov hesab edir ki, son illər urbanizasiya qlobal miqyasda sürətlə artıb: "Beynəlxalq demoqrafik mərkəzlər və ekspert qrupları artıq bu dinamikanın sosial nəticələri ilə bağlı narahatlıq ifadə edirlər".

Millət vəkilinin sözlərinə görə, Azərbaycan da bu qlobal tendensiyadan kənarda qalmayıb: "Xüsusilə 1990-cı illərin ikinci yarısı və 2000-ci illərin əvvəllərində urbanizasiya tempi nəzərəçarpacaq dərəcədə artıb. Bu dövr Bakıda tikinti bumunun başladığı mərhələyə təsadüf edir. Paytaxt və digər iri şəhərlərdə tikinti sektorunun genişlənməsi minlərlə yeni iş yerinin yaranmasına gətirib çıxarıb və bu, regionlardan əmək ehtiyatlarının şəhərlərə axınını stimullaşdırıb".

A.Allahverənov urbanizasiyanın sürətlənməsində digər mühüm faktor kimi Ermənistan-Azərbaycan münaqişəsini göstərir. Onun fikrincə, ölkə ərazisinin beşdə bir hissəsinin uzun illər işğal altında qalması, təmas xətti boyunca yaşayan əhalinin təhlükə altında olması həmin bölgələrdə yaşayan insanların iri şəhərlərə köçünü qaçılmaz edib.

### BÖYÜK QAYIDIŞ FONUNDA YENİ SSENARİ

Deputat sonrakı mərhələdə dinamikanın qismən dəyişdiyini vurğulayır: "İşğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işləri yeni mərhələnin əsas istiqamətini müəyyənləşdirib. Rəsmi məlumatlara görə, artıq 70 minə yaxın insan həmin ərazilərə qayıdıb. Böyük Qayıdış Proqramının birinci mərhələsi ilə 2026-cı ilin sonuna qədər təxminən 200 min nəfərin geri dönüşü nəzərdə tutulur. Bu, urbanizasiya tempinə təsir edən amildir, lakin şəhərlərdən kəndlərə kütləvi dönüş baş verməyib. Amma yenə də regionların inkişafına yönəlmiş iqtisadi və infrastruktur layihələri müəyyən əhali qruplarının geri qayıdışını stimullaşdırır və bu proseslərin dolayısı ilə dəstəklənməsini təmin edir".

Deputat deyir ki, urbanizasiya daha çox Bakı üçün xarakterik olaraq qalır. Bölgələrdən digər iri şəhərlərə axın paytaxtla müqayisədə o qədər də intensiv deyil.

### URBANİZASİYA TƏZYİQLƏRİNİ AZALTMAĞIN YOLLARI

İqtisadçı-ekspert Eyyub Kərimli isə bildirir ki, urbanizasiya təkcə iqtisadi səbəblərlə bağlı deyil. Kənd əhalisinin şəhərlərə üz tutmasının arxasında həm də sosiallaşma, mədəni tədbirlərə yaxınlıq, keyfiyyətli yaşam mühiti və nəqliyyat imkanlarının əlçatanlığı kimi amillər dayanır. Ekspert vurğulayır ki, iri şəhərlərdə iqtisadiyyatın inkişafı, müəssisələrin şəhərlərdə yerləşməsi və sənayeləşmə prosesləri zəncirvari effekt yaradır. Daha çox əhali şəhərlərdə geniş bazar və tələb yaratdığı üçün müəssisələr şəhərə yaxın olmağa üstünlük verirlər. Bu isə insanları həm iş tapmaq, həm də daha rahat həyat şəraiti üçün urban mərkəzlərə cəlb edir.

E.Kərimli hesab edir ki, urbanizasiyanın qarşısını müəyyən qədər almaq üçün kəndlərdə şəhərə yaxın yaşam şəraiti təmin edilməlidir.

Ekspert əlavə edir ki, ali təhsil müəssisələrinin bölgələrə yerləşdirilməsi də kəndlərin canlanmasına və əhalinin bölgələrdə qalmasına müsbət təsir göstərər.

### BAKI VƏ ABŞERONUN YÜKÜ AZALA BİLƏR

Coğrafiya İnstitutunun şöbə müdiri Etibar Bədəlov bildirir ki, hazırda rəsmi statistikaya görə, ölkədə şəhər əhalisinin payı 54,4 faizdir. Onun sözlərinə görə, bu rəqəmlər faktiki vəziyyəti tam əks etdirmir, çünki əhalinin böyük hissəsi Bakı və Bakıətrafı ərazilərdə toplanıb: "Son 25 ildə şəhər əhalisi təxminən 1,5 milyon nəfər artıb ki, bunun da bir milyondan çoxu Bakı və Abşerona düşür. Bakı aqlomerasiyasına baxdıqda, ümumi şəhər əhalisi artımının təxminən 70 faizi bu bölgəyə aid olur. Qeyri-rəsmi məlumatlara görə, Bakının əhalisi 4 milyona yaxındır".

E.Bədəlov hesab edir ki, gələcəkdə şəhər əhalisi artmağa davam edəcək. İşğaldan azad edilmiş Qarabağ zonasında yeni şəhərlərin tikilməsi, həmçinin digər iri şəhərlərdə infrastrukturun inkişafı nəticəsində şəhər əhalisinin payı 10-15 il ərzində 80 faizə çatacaq. Bu isə Bakı və Abşeron yarımadasının yükünü nisbətən azaldacaq və demoqrafik balansı regionlar üzrə bərabərləşdirməyə imkan verəcək.

Tərk edilən kəndlərin gələcək taleyinə gəlincə, E.Bədəlov deyir ki, hazırda urbanizasiya prosesləri mənfi təsir göstərir: "Kəndlərin çoxu boşalır, əhali şəhərlərə üz tutur. Bu, mənfi xüsusiyyətdir. Bunun qarşısını almaq üçün dövlət proqramlarının daha geniş şəkildə həyata keçirilməsi lazımdır".

# NOVRUZ SÜFRƏLƏRİ ÜÇÜN KƏND QOXUSU





Fotolar: Mahir Rüstəmov / Global Photostock















**Bakıda "Kənddən Şəhərə" Novruz yarmarkası fəaliyyətə başlayıb. Yarmarkada 25-ə yaxın regiondan 50-dən çox fermer iştirak edir. Alıcılara 100-dən artıq çeşiddə kənd təsərrüfatı və qida məhsulu münasib qiymətə təqdim olunur.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Novruz bayramı yaxınlaşdıqca bayram süfrəsi üçün alış-veriş də canlanır. Şəhər sakinlərinin yerli və təzə kənd məhsullarına olan tələbatını qarşılamaq məqsədilə Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı ilə 7 - 18 mart tarixlərində "Kənddən Şəhərə" Novruz yarmarkası keçirilir. Yarmarkada 25-ə yaxın regiondan 50-dən çox fermer iştirak edir. Alıcılara 100-dən artıq çeşiddə kənd təsərrüfatı və qida məhsulu təqdim olunur. Biz də təqdim olunan məhsullarla yaxından tanış olmaq üçün yarmarkaya yollandıq.

Piştaxtalar boyu düzülmüş meyvə, tərəvəz, çərəz, bal, çay, süd məhsulları və turşular yarmarkanın rəngarəng mənzərəsini yaradır.

## "EVDƏ UŞAĞI OLANLAR BU BALA ÜSTÜNLÜK VERİR"

İlk olaraq bal düzülən piştaxtaya yaxınlaşdıq. Kəlbəcərdən gələn satıcı Vahid balın təbii olduğunu xüsusi vurğulayır: "Balı öz əlimlə süzmüşəm. Qiymətlər 25-30 manatdan başlayır. Çiçək, qaratikan və cökə balının kiloqramı 30 manatdır, bankalarda satılan bal isə 25 manata təklif olunur. Daha çox çiçək balını alırlar. Digər növlərə nisbətən yüngül olur. Əsasən evdə uşağı olanlar bu bala üstünlük verir".

## LƏNKƏRAN ÇAYININ ƏTRİ

Qonşu piştaxtada isə Lənkəran çayları satılır. Satıcı Aynurə xanım çayı termosda dəmləyərək alıcılara dadızdırır: "Rəngi stəkana çıxmır. Əsl çay belə olmalıdır. Təbii çay 5-10 il də qala bilər və zaman keçdikcə daha da ləzzətli olur".

Satıcının sözlərinə görə, yarmarkada çayların qiyməti 25 manatdan başlayır. Yarpaq çayının böyük paketi 28 manat, yarım kiloqramı isə 14 manatdır: "Ən çox yarpaq çayını alırlar. Çünki daha tez dəmlənir. Buket çayın kiloqramı 45 manatdır, böyük qablaşdırması isə 100 manatdır".

## "12 MANATA SATDIĞIMIZ KİŞMİŞ BAZARLARDA 17 MANATDIR"

Novruz süfrəsinin əvəzolunmaz məhsullarından olan quru meyvələr də yarmarkada geniş çeşiddə təqdim olunur. Naxçıvandan məhsul gətirən satıcı Vüqar qiymətlərin daha sərfəli olduğunu deyir: "Ordubad gavalısı 10 manatdır. Bizim burada 12 manata satdığımız kişmiş bazarlarda 17 manatdır. Alıcılara endirim də edirik. Təki alver olsun. Məhsulların hamısı təzədir".

## TURŞULAR VƏ MÜRƏBBƏLƏR

Yarmarkada müxtəlif turşu və mürəbbələr də alıcıların diqqətini çəkir. İsmayıllıdan gələn satıcı Namiq deyir ki, məhsulların bir çoxu ev şəraitində hazırlanıb: "Zoğal, göyəm və badımcan turşusu beş manat, çaşır turşusu isə 10 manatdır. Ən çox sirkəyə və abqoraya tələbat var".

## ALMADAN QALMADI...

Xaçmazdan alma gətirən satıcı Cavad deyir ki, yarmarkada meyvələr marketlərdən xeyli ucuzdur: "Marketlərdə 2 manat 50 qəpiyə satılan alma burada 1 manat 50 qəpikdir. Qırmızı alma 1 manat 50 qəpikdən 3 manata qədər, sarı alma 1 manat, yaşıl alma isə 2 manat 50 qəpiyə satılır. Armud isə 2 manat 50 qəpikdir".

Gədəbəydən kartof və soğan gətirən satıcı Nizami isə məhsulların dərmansız yetişdirildiyini deyir: "Dünən yarmarkaya gəlmişəm, 20 kisə kartof gətirmişdim. Bu gün cəmi 4 kisə qalıb". Xırda kartof 1 manat, iri kartof isə 1 manat 50 qəpikdir: "Burada yer pulu olmadığı üçün məhsulu ucuz sata bilirik". Satıcı əlavə edir ki, alıcılar əsasən axşam saatlarında çox olurlar və həftə sonu yarmarka daha da canlanır: "İstərdik ki, belə yarmarkalar daimi olsun. İnsanlar tez-tez soruşur ki, yenə gələcəksiniz? Daimi deyil deyə, insanlar narazılıq edir".

## UCUZ OLDUĞUNU DEYƏN DƏ VAR, NARAZI QALAN DA...

Yarmarkada alıcıların sayı kifayət qədərdir. Bəziləri piştaxtalara baxmaqla kifayətlənir, bəziləri isə dolu torbalarla çıxır. İsmayıl bəy qiymətlərdən razı qaldığını deyir: "Burada təsadüfən gördük yarmarkanı. İtburnu axtarırdıq, amma daha çox məhsul aldıq. Cırhacır almasını başqa yerdə 3 manatdır, burada 2 manata aldım. Narı da 2 manat 50 qəpiyə aldıq".

Lakin bütün alıcılar eyni fikirdə deyil. Binəqədidən gələn Sevda xanım qiymətlərin bazardan fərqli olmadığını düşünür.

Piştaxtalarda təqdim olunan qiymətlərə görə, səməninin qiyməti ölçüsündən asılı olaraq 1 manat 50 qəpikdən 15 manata qədər dəyişir. Qoyun pendirinin kiloqramı 11-12 manat, inək pendirinin 9 manat, qaymağın 5 manat, Gədəbəy şorunun 4 manat, əridilmiş yağın 22 manatdır. Yumurta 35-40 qəpik, toyuq 12 manat, lavaş isə 1 manat 30 qəpiyə satılır.

Çərəzlərdən qabıqlı fındıq kiloqramı 9 manatdan, fındıq ləpəsi 22-24 manatdan, qovrulmuş fındıq ləpəsi 22-28 manatdan, qoz ləpəsi 14-16 manatdan, soyulmuş qoz ləpəsi 15-25 manatdan, badam ləpəsi 14 manatdan, qarışıq çərəz 10 manatdan təklif edilir.

Türkan kəndindən gətirilən göyərtinin 7 dəstəsi 1 manatdır.

## "QİYMƏTƏ MÜDAXİLƏ ETMİRİK, FERMER ÖZÜ MÜƏYYƏNLƏŞDİRİR"

Aqrar Tədarük və Təchizat İdarəsinin ictimaiyyətlə əlaqələr və marketinq şöbəsinin müdiri Nilüfər Qaçayeva bildirdi ki, fermerlərin yarmarkada iştirakı üçün qeydiyyat prosesi olduqca sadədir: "Fermerlər qaynar xəttə zəng edərək iştirak etmək istədiklərini bildirirlər. Onlar həm bayram, həm də həftəsonu yarmarkalarında iştirak edə bilirlər. Yarmarkada fermerlər üçün yerlər, tərəzi, önlük və piştaxtalar ödənişsiz təqdim olunur. Onlar sadəcə məhsullarını gətirib satırlar. Yer pulu olmadığı üçün fermerlər məhsullarını daha münasib qiymətə təklif edə bilirlər. Biz qiymətə müdaxilə etmirik, onu fermer özü müəyyənləşdirir".

N.Qaçayevanın sözlərinə görə, qiymətlərin bazarla müqayisədə daha münasib olması üçün mütəmadi monitorinqlər aparılır: "Hər həftə bazar araşdırması aparılır. Monitorinq komandamız bazarlardakı qiymətləri izləyir və çalışır ki, yarmarkada məhsullar daha münasib qiymətə təklif olunsun".

# TRIPP TƏŞƏBBÜSÜ MÜHÜM İMKANLAR YARADIR

Rövşən Nəcəf SOCAR ilə ABŞ şirkətləri arasında səmərəli əməkdaşlığın enerji sektorunun müxtəlif istiqamətləri üzrə genişləndiyini söyləyib. O, bu tərəfdaşlığın rəqəmsal texnologiyalar və dayanıqlılıq təşəbbüslərinə qədər mühüm istiqamətləri əhatə etdiyini vurğulayıb.




Azərbaycan regional enerji mərkəzi və Xəzər regionuna açılan mühüm qapı kimi mövqeyini daha da möhkəmləndirib. "Report" Azərbaycan Dövlət Neft Şirkətinə (SOCAR) istinadən xəbər verir ki, bunu şirkətin prezidenti Rövşən Nəcəf Vaşinqtonda keçirilən ABŞ-Azərbaycan Ticarət və Biznes Konfransında iştirakı zamanı çıxışında bildirib.

Konfrans Azərbaycan ilə ABŞ arasında strateji tərəfdaşlığın inkişafı, o cümlədən iqtisadi əməkdaşlığın genişləndirilməsi, ticarət əlaqələrinin gücləndirilməsi kimi məsələlərə həsr olunub. Konfrans çərçivəsində "İkitərəfli ticarətin və strateji əməkdaşlığın gücləndirilməsi" mövzusunda açılış sessiyası keçirilib.

### ENERJİ SAHƏSİNDƏ TƏRƏFDAŞLIQ

Açılış sessiyasında çıxış edən SOCAR-ın prezidenti otuz ildən çox müddətdə Azərbaycan ilə ABŞ arasında enerji sahəsində uğurla davam etdirilən əməkdaşlığın ölkəmizin enerji sektorunun inkişafına mühüm töhfə verdiyini bildirib. ABŞ şirkətlərinin Azərbaycanın iri neft-qaz layihələrində iştirak edən ilk tərəfdaşlardan olduğunu söyləyən SOCAR-ın prezidenti bu əməkdaşlığın möhkəm təməlinin "Əsrin müqaviləsi"nin imzalanması ilə qoyulduğunu deyib.

R. Nəcəf strateji coğrafi mövqeyi, inkişaf etmiş infrastrukturu və uzun illər ərzində formalaşmış uğurlu beynəlxalq əməkdaşlıq təcrübəsi sayəsində Azərbaycanın regional enerji mərkəzi və Xəzər regionuna açılan mühüm qapı kimi mövqeyini daha da möhkəmləndirdiyini qeyd edib.

### DATA MƏRKƏZLƏRİNİN YARADILMASI DİQQƏTDƏDİR

Ötən illər ərzində SOCAR ilə ABŞ şirkətləri arasında səmərəli əməkdaşlığın enerji sektorunun müxtəlif istiqamətlərində genişləndiyini söyləyən Rövşən Nəcəf bu tərəfdaşlığın kəşfiyyat və hasilat ilə yanaşı, mühəndislik, rəqəmsal texnologiyalar və dayanıqlılıq təşəbbüslərinə qədər mühüm istiqamətləri əhatə etdiyini vurğulayıb. Xüsusilə, süni intellektin biznesdə istifadəsinin geniş vüsət alması ilə Data mərkəzlərinin yaradılmasına tələbatın artdığı bir dövrdə bu məsələnin də diqqət mərkəzində olduğunu qeyd edib.

SOCAR-ın prezidenti Azərbaycanın Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya etibarlı təbii qaz tədarükləri həyata keçirdiyini bildirərək ölkəmizin Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsində mühüm rol oynadığını diqqətə çatdırıb.

### ENERJİ, TEXNOLOGİYA VƏ MALİYYƏ SEKTORLARI ÜZRƏ ƏMƏKDAŞLIQ



Regional bağlantıların inkişafının Cənubi Qafqazda iqtisadi əməkdaşlığın və uzunmüddətli sabitliyin formalaşmasındakı rolundan bəhs edən R.Nəcəf TRIPP təşəbbüsünün ticarətin təşviqi və regional inteqrasiyanın artırılması baxımından mühüm imkanlar yaratdığını diqqətə çatdırıb.

Tədbirdə enerji, texnologiya və maliyyə sektorları üzrə əməkdaşlıq imkanlarına dair bir sıra panel müzakirələri təşkil olunub. SOCAR-ın vitse-prezidenti Əfqan İsayev "Enerji infrastrukturunun inkişafı və gələcəyin enerji sektoruna kapital axını" mövzusunda keçirilən panel sessiyasında çıxış edib.

Qeyd edək ki, ötən ay "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası" imzalanıb. Bu xüsusda, ABŞ-Azərbaycan Ticarət və Biznes Konfransı iki ölkənin şirkətləri arasında biznes əlaqələrinin genişləndirilməsi, yeni investisiya imkanlarının müəyyənləşdirilməsi baxımından da mühüm əhəmiyyət kəsb edir.




# "Nar" peşəkar kadr hazırlığı təlimlərinə başladı

Mobil operator "Nar" ölkənin yerli əmək bazarı üçün peşəkar kadrların hazırlanması istiqamətində təlimlərə başladı. "Nar"ın tərəfdaşlıq etdiyi universitetlərin tələbələri üçün keçirilən təlimlər seriyası, ilk olaraq, Azərbaycan Texniki Universitetində (AzTU) start götürdü.

"Nar"ın İnsan qaynaqları departamentinin peşəkar heyəti tərəfindən hazırlanan təlim proqramı texniki ixtisaslar üzrə təhsil alan tələbələrə rabitə sahəsi üzrə karyera perspektivləri, işə qəbul prosesi, real iş həyatında tələb olunan bacarıqlar barədə bilikləri əhatə edir. Semestr ərzində iki mərhələdə keçiriləcək təlim ümumilikdə 40 iştirakçını əhatə edir.

Təlimdən öncə "Nar"ın baş icraçı direktoru Özgür Genc tələbələrlə görüşdü. Özgür Genc müasir dünyada texniki ixtisasların aparıcı rolunu vurğulayaraq hazırda bu sahənin peşəkarlarına hər zaman olduğundan daha artıq ehtiyac olduğunu bildirdi.

Qeyd edək ki, "Nar" Azərbaycanın rabitə bazarına peşəkar kadrların hazırlanması məqsədilə, paytaxt və regionlarda fəaliyyət göstərən universitetlərlə əməkdaşlıq edir və bu çərçivədə universitetin tələbələrinin bilik və bacarıqlarının təkmilləşdirilməsi istiqamətində davamlı layihələr həyata keçirir. Mobil operatorun layihələri haqqında ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz.

Hazırda 2,2 milyon abunəçiyə xidmət göstərən "Nar" son 7 il ərzində Müştəri Loyallığı İndeksi göstəricisinə əsasən Azərbaycanda lider mobil operatordur. Bu uğurun arxasında "Nar"ın ardıcıl şəkildə həyata keçirdiyi müştəriyönümlü strategiya dayanır. Mobil operator istifadəçilərinə sərfəli qiymət qarşılığında dayanıqlı və yüksəkkeyfiyyətli rabitə xidmətləri, müxtəlif internet paketləri və müasir eSim texnologiyası təqdim edir.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 367
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# ƏMƏK BAZARINDA YENİ DİNAMİKA

Azərbaycanda əmək bazarında xarici işçi qüvvəsinin sayında azalma müşahidə edilir. Ekspertlər azalmanı həm yerli peşəkar kadrların artması, həm də müəyyən sahələrdə ixtisarlarla əsaslandırırlar.

SEVİNC ABBASOVA

Əmək bazarında xarici işçi qüvvəsinin dinamikası müəyyən dəyişikliklərlə müşahidə olunub. Rəsmi statistikaya əsasən, 2025-ci ilin sonuna ölkədə qüvvədə olan iş icazələrinin sayı 7 990 nəfər təşkil edib. Bu göstərici 2024-cü ilin sonundakı 8 141 nəfərlə müqayisədə 151 nəfər və ya təxminən 1,9 faiz azdır. Maraqlıdır, görəsən, bu azalmanın əsas səbəbi nədir?

### TİKİNTİ SEKTORU LİDERDİR

Sahələr üzrə bölgüyə nəzər saldıqda, tikinti sektorunun lider mövqedə qaldığı görünür. 2025-ci ildə tikintidə çalışan əcnəbilərin xüsusi çəkisi 34,3 faiz təşkil edib. Mədənçıxarma sənayesində isə əks tendensiya müşahidə olunur. 2024-cü ildə 9,8 faiz olan pay 2025-ci ildə 10 faizə yüksəlib. Enerji və xammal sektorunda texnoloji bilik və spesifik təcrübə tələb edən sahələrdə xarici mütəxəssislərə ehtiyacın davam etməsi bu artımı izah edir. Emal sənayesində isə müəyyən geriləmə qeydə alınıb. Əgər 2024-cü ildə bu sahənin payı 9,3 faiz idisə, 2025-ci ildə 8,9 faizə enib. Ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində də azalma qeydə alınıb. 6,1 faizdən 5,6 faizə enən göstərici bu istiqamətdə xarici işçi qüvvəsinə tələbatın nisbətən zəiflədiyini göstərir. Eyni zamanda, təhsil sektorunda artım diqqət çəkir. 2024-cü ildə 5,4 faiz olan pay 2025-ci ildə 5,7 faizə yüksəlib.

### İŞÇİYƏ EHTİYAC AZALIB?

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının rəhbəri Sahib Məmmədov bildirib ki, Azərbaycanda əcnəbi vətəndaşların iş icazələri peşə və ərazi üzrə deyil, ümumi kvota əsasında müəyyən olunur. Miqrasiya qanunvericiliyinə görə, iş icazəsi əcnəbilərə bir il müddətinə verilir. Qarabağdakı yenidənqurma işləri ilə əlaqədar bəzi hallarda bu müddət iki ilə qədər uzadılıb. S.Məmmədov ehtimal edir ki, həmin ərazilərdə işçi ehtiyacı azalıb: "Əvvəllər hətta ixtisaslı fəhlələrə, mürəkkəb montaj və elektrik işləri üzrə kadrlara, habelə mühəndislərə böyük tələbat var idi. Görünür, hazırda bu işlərdə xarici işçilərə ehtiyac minimuma enib".

Ekspert hesab edir ki, bu tendensiyanın həm müsbət, həm də mənfi tərəfləri var: "Müsbət tərəfi odur ki, yerli işçi qüvvəsinin kvalifikasiyası artıb və ixtisaslı işləri yerli əmək bazarı təmin edə bilir. Mənfi tərəfi isə infrastruktur layihələrinin həcminin azalması ilə bağlı ola bilər".

### KƏMİYYƏT KEYFİYYƏTƏ DƏYİŞİB

Millət vəkili Azər Allahverənov deyib ki, əməkçi miqrantların sayının azalması bir neçə amillə bağlıdır. Azərbaycanda azalma əsasən yerli şərait və iqtisadi faktorlardan qaynaqlanır.

Deputatın sözlərinə görə, pandemiya dövründə iqtisadi sahələrdə layihələrin dayandırılması əməkçi miqrantların iş imkanlarını məhdudlaşdırıb, bu isə öz növbəsində iş yerlərinin bağlanmasına səbəb olub: "Amma sonrakı illərə nəzər saldıqda görürük ki, miqrasiya mübadiləsi templəri sabitləşib. Əmək fəaliyyəti ilə məşğul olan əcnəbilərin sayında müəyyən hərəkətlənmə müşahidə olunur. Bu da onunla bağlıdır ki, yerli qanunvericilikdə əməkçi miqrantlar məsələsində yeni bir yanaşma sərgilənməyə başlayıb. Yəni, qanunvericilikdə yüksək ixtisasa malik miqrantlara xüsusi diqqət göstərilir ki, nəticədə kəmiyyət-keyfiyyət dəyişiklikləri yaranıb".




## Yerli kadrlar üstünlük qazanır

A.Allahverənov həmçinin bildirib ki, hazırda əcnəbi miqrantların əsas fəaliyyət sahələri neft-qaz, tikinti, yüksək texnologiyalar və sahibkarlıqdır: "Əsas pay neft-qaz sektoruna aiddir. Amma işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq layihələrində də xeyli xarici şirkət fəaliyyət göstərir və onlar birbaşa ixtisaslı miqrantların xidmətindən istifadə edirlər. Bizdə əmək bazarında əməkçi miqrantlarla bağlı bir neçə alət var. Onların arasında əmək kvotalarının verilməsi, fərdi uçot sistemində qeydiyyat məsələsi çox vacib alətlərdir. Məsələn, işğaldan azad olunmuş ərazilərdə əmək kvotası yoxdur. Amma əcnəbilərin fərdi uçot sistemində qeydiyyatı tələbi qüvvədə qalır".




Deputat onu da əlavə edib ki, son illər əmək bazarında yerli kadrların rəqabət qabiliyyəti artıb: "Azalma həm də onunla bağlı ola bilər ki, əmək bazarında yerli kadrlar rəqabətə daha dayanıqlıdır. Tarixi misal kimi, 1994-cü ildə "Əsrin müqaviləsi" imzalandıqdan sonra neft-qaz sektorunda konsorsiumlarda əməkçi heyətin 85-90 faizi əcnəbilərdən ibarət idi. Lakin hökumətin tələbi ilə yerli kadrların formalaşdırılması və yetişdirilməsi nəticəsində hazırda iri xarici şirkətlərin əməkdaşlarının 95 faizi yerli mütəxəssislərdən ibarətdir".

### AZALMA MÜVƏQQƏTİDİR

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) iqtisadiyyat kafedrasının dosenti, iqtisad elmləri namizədi Emin Qəribli isə bildirib ki, Azərbaycanda əcnəbi işçilərin böyük əksəriyyəti neft sektorunda çalışır: "Hazırda ölkədə neft sahəsində müvəqqəti azalmalar müşahidə olunur ki, bu da xarici işçilərin sayına təsir edən əsas amillərdən biridir".

E.Qəribli vurğulayıb ki, Qarabağ və Ələt iqtisadi zonalarındakı böyük investisiya layihələri ixtisaslı kadrlar üçün tələbatı yaxın gələcəkdə artıracaq. Onun sözlərinə görə, ölkədə investisiyaların dinamikası müsbətdir, lakin cari ilin iqtisadi artımı bir qədər zəifdir. Qonşu ölkələrdə yaranmış gərginliklər də regiona təsirsiz ötüşmür. Ekspert qeyd edib ki, iqtisadi aktivliklə bağlı xarici işçi sayında dalğalanmalar həmişə müşahidə olunub və bu azalmanın müvəqqəti xarakter daşıdığını düşünür.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi


# HƏBS ÇIXIŞ YOLUDURMU?!



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

**2025-ci ildə Azərbaycanda aliment ödəməyən 2 344 nəfər həbs edilib. Həmin il icraatda 141 min aliment işi olub. Borclulardan 4 299-u haqqında inzibati xəta üzrə protokol tərtib olunub, 3 083 nəfər isə məhkəmələr tərəfindən inzibati tənbeh alıb.**

Hazırda Azərbaycan cəmiyyətində boşanmadan sonrakı ən ciddi problemlərdən biri alimentlərin ödənilməməsidir. Bu problem yalnız şəxsi münasibətlərin bitməsi deyil, həm də qadın və uşağın sosial-iqtisadi vəziyyətinə ciddi təsir göstərir. Məhkəmələr aliment ödəmək barədə qərar çıxarsa da, qarşı tərəf bəzən ödənişdən boyun qaçırır və tətbiq olunan cəza mexanizmləri də hər zaman nəticə vermir. Ədliyyə nazirinin müavini Toğrul Hüseynovun açıqlamasına görə, 2025-ci ildə Azərbaycanda aliment ödəməyən 2 344 nəfər həbs edilib. Həmin il icraatda 141 min aliment işi olub. Borclulardan 4 299-u haqqında inzibati xəta üzrə protokol tərtib olunub, 3 083 nəfər məhkəmələr tərəfindən inzibati tənbeh alıb. Nəticə göstərir ki, həbs, yaxud inzibati cəza çıxış yolu deyil. Bəs çıxış yolu nədir?

### ALİMENT ÖDƏYƏN ƏGƏR MAAŞ ALMIRSA...

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquq şöbəsinin əməkdaşı Tural Hüseynzadə "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, aliment yalnız tərəflər arasında qarşılıqlı razılaşma olmadığı halda məhkəmə qərarı ilə ödənilir: "Alimentlə bağlı məhkəmə qərarı qüvvəyə mindikdən sonra, borclu tərəf ödənişi həyata keçirmirsə, ilkin olaraq icra məmuru xəbərdarlıq edir. Bu xəbərdarlıq bir ay ərzində verilir. Əgər borc bu müddət ərzində ödənilməzsə, şikayət olunur və borcluya yenidən xəbərdarlıq edilir. Xəbərdarlığa baxmayaraq, aliment yenə də ödənilmirsə, icra məmuru borclunun maaşına yönləndirmə edə bilər, yəni ödəniş avtomatik olaraq maaşından tutulur. Əgər maaşı yoxdursa, digər gəlirləri və ya əmlakı varsa, aliment həmin gəlirlərdən və əmlakdan tutulur. Buna baxmayaraq, aliment ödənməzsə, borclu İnzibati Xətalar Məcəlləsinin 528-ci maddəsi üzrə cərimələnə bilər. Fiziki şəxslər üçün cərimə məbləği 500-1000 manat arasında dəyişir".

### "BİR TİKƏ ÇÖRƏYİNİZ VARSA, YARISINI UŞAĞA VERMƏLİSİNİZ"

Mütəxəssis bildirir ki, cərimələr adətən rəsmi iş yeri olmayan və kifayət qədər gəliri olan şəxslərə tətbiq edilir: "Aliment ödəməli olan şəxs aşağı maaşı alsa da, hətta əlilliyi olsa belə, qanunla müəyyən olunmuş hissəni mütləq uşağa verməlidir. Bu, onun borcudur, çünki böyüyün hüququ ilə uşağın hüququ kəsişdikdə, uşağın mənafeyi üstün tutulur. Yəni borclu tərəf bir tikə çörək əldə edə bilirsə, həmin çörəyin müəyyən hissəsini aliment kimi uşağa verməlidir. Aliment ödəmək iqtidarında olan, amma qərəzli şəkildə icra məmurunun tələblərini yerinə yetirməyən şəxs məsuliyyətə cəlb olunur".




## "BƏHANƏLƏR ƏN BÖYÜK PROBLEMDİR"

Qurum rəsmisi bildirir ki, alimenti ödəyə bilməyənlər, buna imkanı olmayanlar əslində çox deyil. Problem odur ki, boşananların əksəriyyəti alimenti qəsdən ödəmək istəmir: "Borcluların bəziləri düşünür ki, ödədiyi pul keçmiş həyat yoldaşı tərəfindən istifadə olunacaq. Alimenti ödəyən valideyn pulun bir hissəsini uşağın bank hesabına köçürə və 18 yaşdan sonra uşaq tərəfindən istifadə olunmasını təmin edə bilər. Həmçinin alimenti ödəyən tərəf valideyndən alimentin uşağa necə xərcləndiyi barədə hesabat tələb edə bilər. Müraciətlərin çoxunda görünür ki, borclu tərəfin gəlirləri var, lakin rəsmi iş yeri olmadığından aliment məbləği maaşdan avtomatik tutulmur. Borclunun ödəmək imkanları olmasına baxmayaraq, qəsdən boyun qaçırması və bəhanələr gətirməsi ən böyük problemdir. Bu zaman qanunun sərt tədbirləri ön plana çıxır".


Tural Hüseynzadə


Şəbnəm Mirələmli

## "Uşağın sosial təminatı davamlı olmalıdır"

Lakin yuxarıda da qeyd etdiyimiz kimi, dövlət cəza tədbirlərini görür, borclu məsuliyyətə cəlb edilir, nəticədə alimentini ödəmir. Mütəxəssis vurğulayır ki, bunun həll yollarını, beynəlxalq təcrübədə müsbət nümunələri araşdırırlar: "Məsələn, bəzi ölkələrdə borclu cəzaçəkmə müəssisəsinə göndərildikdə, onun cəza müddətində aliment dövlət tərəfindən ödənilir. Daha sonra müəssisədən çıxanda, dövlət onu məcburi əməyə cəlb etməklə, ödədiyi məbləği borcludan alır. Yaxud vətəndaş aliment öhdəliyini ödəyə bilmədikdə və ya boyun qaçırdıqda, ödənişi müvafiq dövlət fondu həyata keçirir. Bu halda vətəndaş artıq şəxsə deyil, dövlətə borclu olur. Azərbaycanda isə borclunun məsuliyyətdən boyun qaçırması ilə bağlı inzibati və cinayət tərkibli cəzalar nəzərdə tutulsa da, yenə də Ailə Məcəlləsi göstərir ki, uşağın sosial təminatı davamlı olmalıdır. Yəni uşağa aliment ödəmək iqtidarında olan valideyn onu verə bilmir və ya boyun qaçırırsa, bu, uşağın problemi deyil. Dövlət nəzarətini gücləndirməlidir ki, uşaqların aliment hüququ davamlı qorunsun".

### "ALİMENT ÖDƏYİCİLƏRİ FAKTİKİ İŞ YERLƏRİNDƏN AYRILIRLAR"

Hüquqşünas Şəbnəm Mirələmli deyir ki, aliment məsələsi dövlət nəzarətindədir. Uşağın maraqlarının təmin edilməsi dövlətin əsas prioritetlərindən biri olduğuna görə ər və arvad arasında məhkəmə mübahisəsi davam etdiyi dövrdə də uşağa aliment ödənilməsi ilə bağlı Ailə Məcəlləsində müvafiq imkanlar mövcuddur. Məhkəmə müddətində uşağın maraqları həm maddi, həm də prosessual hüquq normaları ilə qorunur. Alimentin tutulmasına dair məhkəmə qərarları dərhal icra olunmalıdır. Aliment ödəyicisi tərəfindən alimentin ödənilməsi qərəzli şəkildə gecikdirildikdə və ya ümumiyyətlə ödənilmədikdə, cərimə və ya bir ayadək müddətə inzibati həbs tətbiq edə bilər".

Hüquqşünas bildirir ki, təcrübədə aliment ödəyiciləri faktiki iş yerlərindən ayrılaraq uydurma əmək müqaviləsi bağlayırlar: "Bunun nəticəsində qanunla müəyyən edilmiş qaydada əməkhaqqından tutulmalı olan məbləğ uydurma əmək müqaviləsində göstərilən daha aşağı əmək haqqı əsasında hesablanır. Bu isə aliment öhdəliyinin faktiki daha az məbləğdə icra olunmasına səbəb olur. Lakin qeyd edilməlidir ki, belə hallara təcrübədə nisbətən az, təxminən hər on işdən birində rast gəlinir".

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# UŞAQLAR, OYUNLAR VƏ RİSKLƏR



Uşaqlar arasında kompüter oyunlarına bağlılıq halları sürətlə artır. Bəzi oyunlar azyaşlıların psixoloji durumuna mənfi təsir göstərir. Artıq belə oyunlara qadağa qoyulması təklifləri səslənməyə başlayıb.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Uşaqlar arasında internet oyun asılılığı ilə bağlı narahatlıqlar geniş yayılıb. Artıq dünyanın bir sıra ölkələrində 16 yaşa qədər uşaqlara internetdən sərbəst istifadəyə məhdudiyyətlərin tətbiqi barədə müzakirələr aparılır, qanunlar qəbul edilir. ÜST “oyun pozğunluğu”nu alkoqol və qumar kimi asılılıq yaradan davranış kimi təsnif edir. Deputat Ceyhun Məmmədovun “Bir sıra internet oyunlarına Azərbaycanda qadağa qoyulması barədə düşünməliyik” fikirləri də bu narahatlıqdan qaynaqlanır: “Ağıllı telefonlar”ın, sosial medianın, internet oyunlarının uşaq və yeniyetmələrin tərbiyəsinə mənfi təsiri günü-gündən daha da artmaqdadır. Xüsusilə bir sıra internet oyunları var ki, onlardan ölkədə sərbəst istifadənin qarşısının alınması barədə düşünməliyik. Təəssüf ki, bu gün istənilən yeniyetmənin bu oyunlara sərbəst çıxmaq imkanı var”.

Ekspertlər hesab edirlər ki, əks halda bu cür halların sayı daha da artacaq, xoşagəlməz proseslərin qarşısını almaq daha da çətinləşəcək. Amma “qadağa” yeganə çıxış yolu da deyil.

### “BƏZİ OYUNLAR AQRESSİYANI ARTIRIR”

Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü Günay Əkbərova hesab edir ki, bu məsələ həqiqətən çox aktualdır və valideynləri də, müəllimləri də ciddi şəkildə narahat edir: “Çünki internet oyunları təkcə əyləncə deyil, eyni zamanda uşağın psixologiyasına, davranışına və gündəlik həyat tərzinə birbaşa təsir edən bir mühitdir. Bəzi oyunlar aqressiyanı artırır, asılılıq yaradır, sosial münasibətləri zəiflədir, dərs motivasiyasını azaldır və diqqəti dağınıq edir”. İŞ üzvü bildirir ki, bir çox ölkələrdə artıq bu məsələ ilə bağlı ciddi addımlar atılır. Məsələn, bəzi ölkələrdə yaş məhdudiyyətləri daha sərt tətbiq olunur, uşaqlar üçün zərərli məzmunlar filtrlənir, hətta müəyyən oyunların reklamı və ya istifadəsi məhdudlaşdırılır: “Çin kimi ölkələrdə uşaqların oyun oynama saatları qanunla tənzimlənib. Avropa ölkələrində isə daha çox “qadağa” deyil, “nəzarət və media savadlılığı” yanaşması üstünlük təşkil edir. Yəni uşağın texnologiyadan istifadəsi tam kəsilmir, amma düzgün istiqamətləndirilir”.

## Balanslı nəzarət, maarifləndirmə və alternativlər

G.Əkbərovanın fikrincə, təkcə qadağa problemi həll etmir. Belə ki, uşaq maraqlandığı bir şeyi qadağan olunmuş kimi gördükdə, bəzən ona daha da çox meyl edir: “Ən düzgün yanaşma balanslı nəzarət, maarifləndirmə və alternativlər təqdim etməkdir. Əsas sual budur: uşağı zərərli oyundan uzaqlaşdırmaq üçün ona alternativ nə təklif edirik? Əgər uşaq boşluqda qalırsa, yenə eyni məzmunlara qayıdacaq. Ona görə də uşaqlara maraqlı, faydalı və cəlbedici alternativlər təqdim edilməlidir. Məncə, uşaqları texnologiyadan uzaqlaşdırmaqdansa, onlara texnologiya ilə düzgün yaşamağı öyrətmək lazımdır. Çünki gələcək artıq rəqəmsal dünyadır. Uşaqlarımızın zərərli axına düşməməsi üçün həm dövlət səviyyəsində tənzimləmə, həm məktəb səviyyəsində maarifləndirmə, həm də ailə səviyyəsində nəzarət mexanizmi birlikdə işləməlidir”.



Günay Əkbərova

### QADAĞANIN MƏNFİ TƏRƏFLƏRİ VƏ RİSKLƏRİ

İnformasiya texnologiyaları üzrə mühəndis-tədqiqatçı Bəhruz Əliyev də hesab edir ki, bəzi oyunların qadağan olmasına ehtiyac var, amma yalnız bu yolla problem tam həll olunmayacaq: “Qadağanın müsbət tərəfləri odur ki, uşaqların zorakılıq, qumar, asılılıq yaradan mexanizmləri olan oyunlara çıxışı azalar, dərs vaxtı və gecə saatlarında asılılığın qarşısı qismən alına bilər. Amma mənfi tərəfləri və riskləri də mövcuddur. Uşaqlar VPN, alternativ platformalarla qadağanı aşa bilərlər. Təcrübə göstərir ki, adətən total qadağa “maraq effektini” artırır. Texniki olaraq hər oyunu effektiv bloklamaq çətindir. Eyni zamanda “zərərli oyun” anlayışı da subyektivdir”.



Bəhruz Əliyev

## “Alternativ yaratmadan qadağa tətbiq etmək doğru deyil”

Mütəxəssis dünya təcrübəsindən nümunə gətirərək bildirir ki, Çində yaşı 18-dən aşağı olanlar üçün onlayn oyun saatları məhdudlaşdırılaraq həftədə üç saata endirilib. Cənubi Koreyada “Shutdown law” - gecə saatlarında oyun qadağası mövcuddur: “Ən yaxşı effekt yaş təsdiqi, vaxt limiti, valideyn nəzarəti birlikdə tətbiq olunanda görünür”.

B.Əliyevin fikrincə, məktəblərdə “Rəqəmsal gigiyena” dərsləri, oyun asılılığı mövzusu üzrə psixoloq sessiyaları, telefonun dərs zamanı istifadəsinə real nəzarət də effektiv ola bilər. Mütəxəssis hesab edir ki, alternativ yaratmadan qadağa tətbiq etmək doğru deyil: “Əgər uşağın əlindən oyunu alırsansa, yerinə nə verirsən” sualı çıxır. Misal üçün: idman dərnəkləri, robototexnika, proqramlaşdırma klubları, məktəbdənkənar fəaliyyətlərin artırılması... Qadağa var, amma alternativ yoxdursa, uşaq yenə gizli oynayacaq”.

### “AİLƏ, MƏKTƏB VƏ CƏMİYYƏT BİR YERDƏ İŞLƏMƏLİDİR”

ADPU-nun Pedaqoji psixologiya kafedrasının baş müəllimi Nigar Məmmədova hesab edir ki, internetdən istifadə uşaqların öyrənməsi baxımından müsbət haldır, amma çox istifadə ziyanlıdır: “Bəzən uşaqlar dərs adı ilə sosial şəbəkədə vaxt keçirirlər. Ailədə ata-ana telefondan, internetdən istifadə edirsə, uşaqlar da edəcək. Amma valideynlər uşaqları nəzarətdə saxlasalar, daha yaxşı olar”.

Psixoloq hesab edir ki, valideynlər övladlarına nəzarəti gücləndirməlidirlər: “Uşaqlara yay tapşırıqları verilməlidir. Əvvəllər yay tətilində kim çox kitab oxuyurdusa, ona hədiyyə verilirdi. Belə motivasiyaedici tədbirlər olmalıdır. Məktəblərdə sinifdənkənar tədbirlər təşkil olunmalıdır. Şəhərdə coffeebook-lar açılır. Onların ödənişini bir az azaldıb uşaqları cəlb etmək lazımdır. İndi uşaqlar boşluqları internetlə doldururlar. Valideynlər bu işdə müəllimlərə kömək etməlidir. Bu problemin həlli üçün ailə, məktəb və cəmiyyət bir yerdə işləməlidir”.



Nigar Məmmədova

# UCUZ EVİN BÖYÜK DƏRDİ

Görünüşü ecazkar, qiyməti isə bazar səviyyəsindən xeyli aşağı olan həyət evlərində sonradan ciddi problemlər aşkarlanır. Məlum olur ki, tikintidə keyfiyyətsiz materiallardan istifadə edilib, evin bünövrəsi yoxdur və s.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Elan saytlarında görünüşü ecazkar, qiyməti isə bazar səviyyəsindən xeyli aşağı olan həyət evləri alıcıların marağını çəkir. Lakin "ucuz ətin şorbası olmur" deyirlər. Bu tipli evlərin keyfiyyəti ilə bağlı ciddi şübhələr var. Bəzi hallarda bünövrəsi kifayət qədər möhkəm olmayan, keyfiyyətsiz materiallardan istifadə edilmiş tikililərə rast gəlinir ki, bu da qısa müddətdə konstruktiv problemlərə yol aça bilər. Hətta iddia olunur ki, Bakıda orta güclü zəlzələ baş verəcəyi təqdirdə belə evlər yüksək risk altındadır.

Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetinin müəllimi, texnika üzrə fəlsəfə doktoru Məhəmməd Musayev "Kaspi" qəzetinə verdiyi müsahibədə bildirmişdi ki, "makler evləri" potensial təhlükələrdir. O, iddia edirdi ki, zəlzələ olsa, "makler evləri"nin hamısı uçacaq.

### "FƏRDİ EVLƏRƏ NƏZARƏT MEXANİZMİ YOXDUR"

Əmlak eksperti Firdovsi Xəlilov deyir ki, son illərdə, xüsusilə 2020-ci ildən sonra, çoxmənzilli yaşayış binalarında dövlət nəzarət mexanizmləri ciddi şəkildə formalaşdırılıb: "Beton və armaturların keyfiyyətinə ciddi diqqət yetirilir, tikintinin standartlara uyğunluğu yoxlanılır, binaların iç-içə tikilməməsi və sıxlıqlarına nəzarət olunur. Lakin fərdi yaşayış evlərinin tikintisinə eyni səviyyədə nəzarət mexanizmi yoxdur. Vətəndaş yalnız evini tamamladıqdan sonra çıxarış üçün müraciət edir. O zaman ölçülər götürülür və sənəd verilir. Yəni tikinti prosesində normativlərin və keyfiyyət standartlarının yerinə yetirilib-yetirilmədiyi yoxlanmır".



Firdovsi Xəlilov

### "ALICI ÜÇÜN POTENSİAL TƏHLÜKƏDİR"

Mütəxəssis bildirir ki, makler inşaatçı deyil. Onun əsas vəzifəsi bir şirkətə və ya şəxsə aid əmlakın satışını həyata keçirməkdir: "Kobud hesablamalarla izah etsək, təmirli fərdi yaşayış evinin çöldən ölçülməklə kvadratmetri təxminən 500 manatdan başlayır. Qiymət təmir növündən, landşaft işlərindən, ərazinin abadlaşdırılmasından və bəzən hovuz kimi əlavə infrastrukturdan asılı olaraq dəyişir. Bakı ərazisində torpağın bir sotu çıxarışla ucuz variantları götürsək, 10-15 min manat arası dəyişir. Məsələn, dörd sot torpaq alınıb və orada 100 kvadratmetrlik ev tikilib. Torpağın qiyməti 40 min manatdırsa, evin tikintisi 90 min manata başa gəlir. Həyət, landşaft, qaz və su təchizatı ilə birlikdə evin minimum maya dəyəri 100 min manat civarında olur. Əgər belə bir evi 60-70 min manata satırlarsa, deməli, burada şübhəli məqam var. Tikilidə və ya sənədləşmədə problemlər, keyfiyyətsiz materiallar və ya normativlərə əməl edilməməsi riski mövcuddur. Bu, alıcı üçün potensial təhlükədir".



## "SAKİNLƏR TƏXLİYƏ OLUNMALIDIRLAR"

Ekspert bildirir ki, tikinti başa çatdıqdan sonra vətəndaşların çoxu inşaatın keyfiyyətindən xəbərdar ola bilmir: "Problemlər proses tamamlandıqdan sonra üzə çıxır və əsasən iki növə ayrılır. Birincisi, inşaatın keyfiyyətsizliyi ilə bağlı məsələlər, ikincisi isə sənədlə əlaqədar problemlər. Bəzi hallarda inşaat qanunsuz yerlərdə aparılır. Dövlət balansında olan torpaqlarda, göllərin doldurulmuş ərazilərində, su axarları boyunca. Hazırda Abşeron rayonunun bəzi ərazilərində doldurulmuş göl sahələrində tikinti aparılan torpaqlar mövcuddur. Belə ərazilərdə yaşayış mümkün deyil. Tikilmiş binalar təhlükəsizlik baxımından sökülməli və sakinlər təxliyə olunmalıdır".

Mütəxəssis tövsiyə edir ki, vətəndaşlar ev alarkən evin və torpağın sənədlərinə diqqət yetirsinlər. Hər ikisinin çıxarışı və qanuni sənədləri olmalıdır: "İkincisi, inşaatın keyfiyyətinə diqqət yetirsinlər. Əgər alıcı bu sahədə kifayət qədər təcrübəyə malik deyilsə, üçüncü tərəf kimi qiymətləndiricilər və ya inşaat təcrübəsi olan şirkətlərdən xidmət ala bilər".

### "ALICI MÜSTƏQİL TİKİNTİ-TEXNİKİ EKSPERTİZA KEÇİRƏ BİLƏR"

Bəs bu evlərdə gələcəkdə meydana gələ biləcək problemlərə görə məsuliyyət kimə aiddir?

Vəkillər Kollegiyasının üzvü, vəkil Vahid Hacızadə deyir ki, alıcı mütləq torpaq sahəsinin çıxarışını və təyinatını yoxlamalıdır. Torpaq yaşayış üçün nəzərdə tutulmayıbsa, həmin ərazidə ev tikintisi qanunsuz sayılır: "Tikinti üçün müvafiq icazələrin və fərdi yaşayış evi üçün çıxarışın mövcudluğu da vacibdir. Həmçinin tikintini aparan şəxsin və ya şirkətin hüquqi statusu və əvvəlki fəaliyyəti araşdırılmalıdır".



Vahid Hacızadə

## KEYFİYYƏTSİZ TİKİNTİ İLƏ BAĞLI MƏSULİYYƏT KİMƏ AİDDİR?

Vəkil bildirir ki, əgər almaq istədiyi evlə bağlı qüsurlar aşkar edilirsə, alıcı müstəqil tikinti-texniki ekspertiza keçirə bilər: "Rəsmi ekspertiza rəyi əsasında satıcıdan qüsurların aradan qaldırılması, dəymiş ziyanın ödənilməsi və ya müqavilənin ləğvi tələbi ilə məhkəməyə müraciət etmək mümkündür. Öhdəliyini icra etməyən borclu kreditora dəymiş zərərin əvəzini ödəməyə borcludur. Zərər müəyyənləşdirilərkən öhdəliyin icra edilməli olduğu yerdə kreditorun tələbini borclunun könüllü ödədiyi gün mövcud olmuş qiymətlər, tələb könüllü ödənilmədikdə isə məhkəmənin qərar çıxardığı gün mövcud olmuş qiymətlər nəzərə alınır".

Keyfiyyətsiz tikinti üçün məsuliyyət kimə aiddir məsələsinə gəldikdə isə, vəkil vurğulayır ki, əsas məsuliyyət tikintini həyata keçirən podratçıya və ya evi satan şəxsə aiddir: "Əgər makler həm tikinti, həm də satış prosesində iştirak edibsə, onun da məsuliyyəti yarana bilər. Müqavilədə keyfiyyət öhdəlikləri göstərildiyi halda məsuliyyətin sübutu daha asan olur. Keyfiyyətə aid tələblər əhəmiyyətli dərəcədə pozulduqda alıcının ixtiyarı var ki, öz seçimi ilə alqı-satqı müqaviləsinin icrasından imtina etsin və ödədiyi pul məbləğinin qaytarılmasını tələb etsin".

### "ŞİFAHİ RAZILAŞMA HÜQUQİ PROBLEM YARADA BİLƏR"

Vəkil qeyd edib ki, alıcı alqı-satqıdan əvvəl texniki baxış keçirməli, mütəxəssis cəlb etməlidir: "Müqavilə notarial qaydada bağlanmalı, ödənişlər rəsmi və sənədləşdirilmiş şəkildə həyata keçirilməlidir. Şifahi razılaşmalar sonradan hüquqi problem yarada bilər. Tikinti qüsurları üzrə kompensasiya isə məhkəmə qərarı əsasında təmin olunur: "Bunun üçün ekspertiza rəyi, müqavilə və ödənişi təsdiq edən sənədlər təqdim edilməlidir. Məhkəmə satıcını maddi zərərin ödənilməsinə, təmir işlərinin aparılmasına və ya müqavilənin ləğvinə məcbur edə bilər".

# O UZAQ, YAŞIL ADA...



**Toronto adalarını Ontario gölündə gizlənən cənnət də adlandırmaq olar. Burada avtomobil sürməyə icazə yoxdur. Sakinlər velosiped, skuter, qayıq və kanoelərdən istifadə edirlər. Adada ev almaq üçün bəzən 40-60 il gözləmək lazım gələ bilər.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Kanadadakı Toronto adaları mənzərəli təbii cənnətdir. Turistlər üçün gözəl istirahət yeri olan bu adalara şəhər mərkəzindən bərə ilə 15-20 dəqiqədən az müddətdə çatmaq olur. Arxipelaqdakı ən böyük adalar Mərkəz ada, Uords və Algonquindur. Adalar Torontodakı 1852-ci ildə qurulan ən qədim Kral Kanada Yaxt Klubuna da ev sahibliyi edir. Adalara il ərzində 1 milyon 200 min insan səyahət edir.

Toronto adaları şəhər və kəndin unikal mənzərələrinə malikdir. Adalarda avtomobil yoxdur. Burada görə biləcəyiniz nəqliyyat vasitələri velosipedlər, skuterlər, qayıqlar və kanoelərdir.

**15 ADADAN İBARƏT QRUP**

Toronto adalarının maraqlı tarixçəsi var. 19-cu əsrin ortalarında landşaft dəyişiklikləri və uzun bir yarımadanın bölünməsi nəticəsində 15 adadan ibarət bir qrup yaranıb. 20-ci əsrdə yerli sakinlər arxipelaqın gələcəyi ilə bağlı narahat olmağa başlayıblar və sahil xəttini qorumaq üçün dalğaqıranlar və körpülər tikiblər. Adalar körpülər və cığırlarla bir-birinə bağlıdır və birindən digərinə asanlıqla çatmaq olur. Bu, Şimali Amerikada yalnız piyadalar üçün nəzərdə tutulmuş ən böyük ərazidir və ümumi sahəsi 230 hektardır.

Uords adasına (Ward”s island) düşən kimi turistləri adanın tarixindən bəhs edən muzey və gəzmək üçün yol xəritəsi qarşılayır.

**99 İLLİK MÜQAVİLƏ**

Təxminən 150 il əvvəl Toronto şəhəri adaları federal hökumətdən satın alaraq öz hima-yəsinə götürüb. Adaları kurort, sağlamlıq və əyləncə komplek-sinə çevirmək üçün plan hazırlanıb, yaşayış, hotel, teatr və əyləncə parkları üçün torpaq ayrılıb. 20-ci əsrlərin sonlarında adalarda kottec icmaları yaradılaraq, buranı yaşayış məntəqələrinə çeviriblər. Nəticədə adalar kifayət qədər daimi sakinə ev sahibliyi edib. 1900-cü illərin ikinci yarısı ada sakinləri üçün bəzi çətinliklər yaradıb. Bələdiyyə adaları sırf istirahət zonasına çevirmək üçün ərazini yenidən qurmağa başlayıb. Bu, kottecləri sayının əhəmiyyətli dərəcədə azalmasına, sökülməsinə və adaların digər hissələrinə köçürülməsinə, eləcə də əmlak və torpaq sahibləri ilə münaqişələrə səbəb olub. Təxminən 20 illik hüquqi mübarizədən sonra sakinlər müvəqqəti qələbə qazanıblar: 1993-cü ildə sakinlərə torpaq icarələrini növbəti 99 il müddətinə uzatmaq imkanı verən “müqavilə” imzalanıb.

**BURAYA QUŞLARIN SƏSİNDƏN ZÖVQ ALMAĞA GƏLİRLƏR**

Uords adası Ontario gölündəki adalardan ən çox ziyarət edilən sayılır. Təxminən hər 30 dəqiqədən bir “Liman Frontu” adlanan yerdən adaya doğru bərə yola düşür. Gediş-dönüş biletinin qiyməti 9 Kanada dollarıdır. Uşaqlar və tələbələr üçün endirimlər mövcuddur. Biletə gediş-dönüş haqqı və velosiped gətirmək üçün icazə daxildir. Bərələrdə sərnişinlər üçün velosiped dayaqları da var.

Adalar yaz və yayda əla piknik yeridir. Çoxları velosipedlərini gətirərək adalardakı sakit küçələrdə sürməkdən zövq alır. Adanın yaşlı sakinlərindən biri ilə söhbətləşirəm: “Ada yalnız yaz və yayda maraqlı olur. İnsanlar yaşıllıqdan, sakitlikdən, Ontario gölünün mənzərəsindən, quşların səsindən zövq almağa gəlirlər. Ancaq qışda bura maraqlı deyil. Qış aylarında burada turistlər olmur, heç ətraf ərazilərdən də gəlmirlər. Burada həyat dayanır və ətraf ərazi sakit və kimsəsiz olur”.

**SPİRTLİ İÇKİ VƏ ƏRZAQ MAĞAZALARI YOXDUR**

Uords adasından piyada yolla Algonquin adasına yollanıram. Hər iki adanın təxminən 650 sakini var. Ancaq turistlərdən başqa küçələrdə kimsə gözə dəymir. Sakinlər sanki evlərinə çəkiliblər. Bu adalarda spirtli içki və ərzaq mağazaları yoxdur. Sakinlər ərzaq üçün bərə ilə Torontoya gedirlər. Adalarda kanalizasiya sistemi, yanğınsöndürmə və tibb məntəqəsi, məktəb, iki uşaq bağçası, kilsə var. Polis ya qayıqla, ya da velosipedlə hərəkət edir.

Küçələrdə ucadan musiqi səsi eşidilmir. Mərkəzi hissəsi uşaq əyləncə parkı, kafe və çimərliklərdən ibarətdir. Yeri gəlmişkən, kafelər, buradakı digər evlər kimi 19-cu əsrin ortalarına aid tikilili xatırladan gözəl taxta evlərdə yerləşir. Kafelərdə qiymətlər də Toronto ilə müqayisədə bahadır. Bunu adaya ərzaq gətirməyin çətinliyi ilə əlaqələndirirlər.

**EV ALQI-SATQISINA CİDDİ NƏZARƏT VAR**

Adada əmlak alqı-satqısı ilə bağlı məhdudiyyətlər mövcuddur. Adadakı evlərin sahibləri, torpaq icarəçiləri əmlaklarını həyat yoldaşlarından və ya uşaqlarından savayı heç kimə vəsiyyət edə bilməzlər. Əmlakların istifadə hüququnun kiməsə verilməsi də qadağandır. Daşınmaz əmlakla bağlı hər hansı alqı-satqı əməliyyatı yalnız “Ada Trest”i tərəfindən həyata keçirilir və prosedur elə təşkil olunur ki, alıcı və satıcı bir-biri haqqında ictimai məlumata malik olmasınlar. Adalardan mənzil almaq istəyənlərin siyahısı ictimaiyyətə açıqlanmır. Bu arzuda olanlar növbəyə yazılıb lotereyada iştirak edə bilərlər. Lotereyada iştirak 110 dollardır. Siyahıda olmaq üçün hər il 45 dollar ödənilir. Siyahıya daxil olduqdan sonra hər şanslı şəxs ardıcıl nömrə alır və yuxarıdakı digər iştirakçılar kənarlaşdırıldıqca sıralamada yuxarı qalxır. İldə orta hesabla 1-3 belə əməliyyat keçirilir. Ev satışa çıxarıldıqda siyahıdakı ilk 100 nəfərə təqdim olunur. Bir sözlə, kimsə adalarda ev sahibi olmaq istəsə, buna nail olmaq üçün 40-60 il lazım ola bilər.

Adaların sakinlərinə beş il ərzində iki ildən artıq müddətə evlərini kirayə verməyə də icazə verilmir. Onlardan ildə ən azı 220 gün evlərində yaşamaq tələb olunur. Hazırda adalardakı 262 torpaq sahəsində yaşayanların sayı cəmi 600 nəfərdir.

Adalardan Torontoya qayıdanda bərədən düşən kimi özümü şəhərin mərkəzində tapıram. Ətrafda çoxlu insan, maşın və səs-küy var. Bu anda adalarda son bir neçə saat ərzində yaşadığım hisslərlə ziddiyyət daha da aydınlaşır...

Kaspi İDMAN
ÜÇ ƏSRİN QƏZETİ
14 MART ŞƏNBƏ 2026

Bir vaxtlar Avropa futbolunun mərkəzlərindən sayılan İtaliya futbolunun böhranı daha da dərinləşə bilər. Bu halda “kalço”nun şöhrətli keçmişi yalnız nostalji kimi qalacaq.

# İTALİYA FUTBOLU DƏRİN BÖHRAN İÇİNDƏ



İtaliya futbolu dərin böhran içindədir. İllər keçdikcə “kalço” həvəskarları üçün mənzərə daha da qaranlıqlaşır. Bu gün italyanların Çempionlar Liqasının 1/8 final mərhələsində cəmi bir təmsilçisi qalıb. Yalnız “Atalanta” ölkə futbolunun qürurunu qitənin ən mötəbər klub turnirində qorumağa çalışır. Avropa Liqasında isə iki İtaliya klubu - “Roma” və “Bolonya” bu mərhələdə bir-biri ilə üz-üzədir. Nəhayət, Konfrans Liqasında ölkəni yalnız “Fiorentina” təmsil edir. Maraqlıdır ki, bu komanda daxili çempionatda elitada qalmaq uğrunda mübarizə aparır.

Vəziyyət yığma komandalar səviyyəsində də ürəkaçan deyil. Yığma yenidən dünya çempionatından kənarda qalmaq təhlükəsi ilə üz-üzədir. Mundialda iştirakçıların sayı 48-ə qədər artırılsa belə, risk aradan qalxmayıb. İtalyanlar dünya çempionatına vəsiqə qazanmaq üçün pley-off sınağından keçməli olacaqlar.

**FİASKO**

Hətta indidən – mövsüm hələ başa çatmamış İtaliya klublarının Avropa macərasını uğursuz saymaq olar. Burada ilk növbədə diqqəti Çempionlar Liqasına yönəltmək lazımdır. İtalyanların bu turnirdə dörd təmsilçisi olsa da, hazırda onlardan cəmi biri qalıb.

Son çempion “Napoli”nin çıxışı tamamilə uğursuz alındı. Hətta azlıqda qalan “Kopenhagen”ə güc gəlməyi bacarmayan neapollular liqa mərhələsini “24-lük”dən kənarda başa vurdular.

“Yuventus”, “İnter” və “Atalanta” isə “Napoli”dən fərqli olaraq pley-off mərhələsinə yüksələ bildilər. Lakin bu üçlükdən yalnız berqamolular Dortmund “Borussiya”sı səddini aşmağı bacardı. Çempionlar Liqasının son finalçısı “İnter” üçün isə gedişat daha da acınacaqlı oldu. Milan təmsilçisi hər iki oyunda turnirin debütantı “Bodo Qlimt”ə uduzaraq mübarizəni dayandırdı.

“Yuventus” isə Türkiyə təmsilçisi “Qalatasaray”a ilk oyunda böyük hesabla məğlub olsa da, cavab qarşılaşmasında cütün taleyini əlavə vaxta qədər aparmağı bacardı. Lakin azlıqda oynayan Luçano Spallettinin komandasının bundan artığına gücü çatmadı.

Beləliklə, Avropanın əsas klub futbol turnirində İtaliyadan yalnız “Atalanta” var. Lakin onlar da 1/8 finalın ilk oyununda evdə “Bavariya”ya 1:6 hesabı ilə uduzmaqla demək olar ki, turnirlə indidən vidalaşıblar.

“Buzovlar ölkəsi” idmanda daha çox futbolu ilə diqqət çəkir. Ancaq bu mövsüm İtaliya klublarının Avropa macərasını təsvir etmək üçün futbol yox, boks terminləri daha uyğundur. Çünki meydandakı mənzərə bir şeyi xatırladır: KO - nokaut. İtalyanlar özləri buna “fiasKO” deyərdilər.

**ÇÖKÜŞÜN SƏBƏBLƏRİ NƏLƏRDİR?**

İtaliya futbolunun hazırkı vəziyyətini bir sıra problemlərlə əlaqələndirmək olar. Bunların başında isə investisiyanın azalması dayanır. Son illərdə A Seriyası maliyyə baxımından digər “Böyük beşlik” çempionatları ilə rəqabətdə açıq-aşkar geridə qalır. İngiltərə, İspaniya və hətta Almaniya klubları sponsorluq müqavilələri, televiziya hüquqları və investor marağı baxımından daha güclü mövqeyə malikdir.

Problemin digər tərəfi infrastrukturla bağlıdır. İtaliyada stadionların böyük hissəsi köhnədir və müasir futbolun kommersiya tələblərinə cavab vermir. Bu da klubların oyun günü gəlirlərini məhdudlaşdırır. Halbuki digər aparıcı çempionatlarda yeni stadionlar və kommersiya layihələri klubların büdcəsinə ciddi gəlir gətirir. Bürokratik əngəllər klubların stadion inşa etməsinə manеə yaradır.

## “KİÇİK DÜNYA ÇEMPİONATI”NDAN “QOCALAR EVİ”NƏ

İnvestisiyanın azalması İtaliya klublarını transfer bazarında çox vaxt məhdud büdcə ilə hərəkət etməyə məcbur edir. Bunun nəticəsində komandalar ulduz futbolçuları heyətdə saxlamaqda çətinlik çəkir, ən yaxşı oyunçular qısa müddətdən sonra daha imkanlı liqalara üz tuturlar.

Bir vaxtlar hətta turnir cədvəlinin aşağı pillələrində qərarlaşan komandaların belə dünya səviyyəli futbolçulara sahib olduğu, “kiçik dünya çempionatı” adlandırılan A Seriyası bu gün tamamilə fərqli mənzərə ilə üz-üzədir. İndi bu liqa sanki karyerasının qürub çağını yaşayan futbolçular üçün son dayanacaqlardan birinə çevrilib.

Bu mövsüm 40 yaşlı Luka Modriçin “Milan”da mühüm rol oynaması da həmin tendensiyanın son nümunələrindən biri kimi göstərilə bilər. Bir zamanlar dünyanın ən parlaq ulduzlarının toplandığı A Seriyası artıq əvvəlki cazibəsini xeyli itirib.

**BİR GÜL İLƏ BAHAR OLMAZ**

Çempionlar Liqasının 1/8 final mərhələsində İngiltərə altı komanda ilə təmsil olunur. İtaliyadan isə cəmi bir klub - “Atalanta” yarışda mövcudluğunu qorumağa çalışır. Bu fakt özü çox şeyi izah edir.

“Atalanta”nın son illərdə göstərdiyi nəticələr, şübhəsiz ki, təqdirəlayiqdir. Lakin bir klubun uğuru digər böyük komandaların problemlərini kölgədə qoymamalıdır.

Əgər yaxın illərdə ciddi struktur və maliyyə dəyişiklikləri həyata keçirilməsə, bir vaxtlar Avropa futbolunun mərkəzlərindən sayılan İtaliya futbolunun böhranı daha da dərinləşə bilər. Bu halda “kalço”nun şöhrətli keçmişi yalnız nostalji kimi qalacaq.